AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI* |
| Qəbul edildiyi tarix | *21.12.2012* |
| Qeydiyyat nömrəsi | *Q-11* |
| Adı | *“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *09.01.2013* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.050.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201212210011* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *08.01.2013* |

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli, 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 13 mart 2008-ci il tarixli 735 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

1. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar aşağıdakı normativ hüquqi aktlar təsdiq edilsin:

1.1. ~~“Sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi Qaydaları” (1 nömrəli əlavə);~~[1]

1.2. “Sığortaçıların rəhbər işçisi vəzifələrinə namizədlər ~~və~~ müvafiq sığorta vasitəçiliyi üzrə fəaliyyətə lisenziya, *həmçinin aktuari fəaliyyətinə aktuari şəhadətnaməsi* almaq istəyən fiziki şəxslər üçün attestasiyanın təşkili və keçirilməsi Qaydaları” (2 nömrəli əlavə);

1.3. “Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində *xarici kapital* payının son həddinin müəyyən edilməsi və bu payın hesablanması Qaydaları” (3 nömrəli əlavə);

1.4. “Sığortaçılarda daxili auditin aparılması Qaydaları” (4 nömrəli əlavə);

1.5. “Sığortaçılarda müstəqil auditin aparılmasına dair minimum tələblər” (5 nömrəli

əlavə);

1.6. “Sığorta, təkrarsığorta, sığorta brokeri və sığorta agenti fəaliyyətinə verilən lisenziyaların forması və doldurulması Qaydaları” (6 nömrəli əlavə);

1.7. “Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması Qaydaları” (7 nömrəli əlavə);

1.8. “Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar” (8 nömrəli əlavə);

1.9. ~~“Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası üzrə sığorta Qaydaları” (9 nömrəli əlavə).~~[2]

2. Bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş normativ hüquqi aktların qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aşağıdakı normativ hüquqi aktları ləğv edilsin:

2.1. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi və bəzi normativ hüquqi aktların qüvvədən düşmüş hesab edilməsi haqqında” 2008-ci il 14 noyabr tarixli İ-110 nömrəli Əmr (2-ci hissəsi istisna olmaqla);

2.2. “Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası üzrə sığorta Qaydalarının təsdiq edilməsi haqqında” 2010-cu il 23 noyabr tarixli İ-189 nömrəli Əmr;

2.3. “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin bəzi normativ hüquqi aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” 2011-ci il 21 yanvar tarixli İ-09 nömrəli Əmr.

3. Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, Hüquq şöbəsi ilə birlikdə bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

4. Bu qərarın icrasına nəzarət nazir müavini Azər Bayramova həvalə edilsin.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
maliyyə naziri — Samir Şərifov

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq edilmişdir.*

*1 nömrəli əlavə*

## Sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi Qaydaları[3]

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 15.2-ci maddəsinə və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 735 nömrəli Fərmanının 3.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və sığortaçının zərərlilik dərəcəsinin hesablanması qaydalarını, habelə bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş digər məsələləri müəyyən edir.

1.2. Bu Qaydalarda istifadə olunan «sığortaçı» anlayışı sığortaçılarla yanaşı, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları da əhatə edir.

1.3. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.3.1. hesabat tarixi – sığortaçının müvafiq hesabatının tərtib edildiyi tarix;

1.3.2. hesabat dövrü - hesabat tarixindən əvvəlki 12 ay;

1.3.3. sığorta (təkrarsığorta) müqavilələri - hesabat dövrü ərzində bağlanmış sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri;

1.3.4. qazanılmış məcmu sığorta haqları – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarının və hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğ;

1.3.5. xərclər – sığorta haqlarından hesablanmış məcburi ayırmalar və işlərin aparılması xərcləri;

1.3.6. məcmu zərərlər – sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərinin, tənzimləmə xərclərinin, həmçinin sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatının cəmi;

1.3.7. tənzimləmə xərcləri – sığorta ödənişlərinin məbləğinə daxil olmayan, lakin sığorta ödənişlərinin verilməsi ilə əlaqədar olan təşkilati, texniki, hüquqi və qiymətləndirmə xidmətlərinin əldə edilməsi üzrə sığortaçının əlavə xərclərinin cəmi;

1.3.8. sığorta hadisələri ili üzrə xalis sığorta ödənişləri – sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərindən təkrarsığortaçıların bu ödənişlərdəki payı çıxıldıqdan sonra qalan məbləğ;

1.3.9. sığorta hadisələri ili – hesabat tarixindən əvvəlki dörd rüb ərzində baş vermiş bütün sığorta hadisələrinə münasibətdə götürülür (bu halda məcmu sığorta ödənişləri və həmin ödənişlərdə təkrarsığortaçıların payı yalnız həmin dörd rüb ərzində baş vermiş sığorta hadisələri üzrə hesablanır);

1.3.10. sığorta hadisələri ili üzrə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı - baş verməsi haqqında qanunla və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat tarixindən əvvəlki dörd rüb ərzində sığortaçıya bildirilmiş, lakin sığorta ödənişləri verilməmiş, yaxud tam verilməmiş sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı sığortaçının (təkrarsığortaçının) öhdəliyi (sığorta ehtiyatları üçün Forma № 8-3-ün, sığorta ehtiyatlarında təkrarsığortaçının payı üçün isə Forma № 8-11-in axırıncı sütununda son 4 rüb üzrə hədlərin cəmi);

1.3.11. sığorta hadisələri ili üzrə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı - baş verməsi haqqında qanunla və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat tarixindən əvvəlki dörd rüb ərzində sığortaçıya bildirilməmiş, sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı sığortaçının (təkrarsığortaçının) öhdəliyi (sığorta ehtiyatları üçün Forma №8-8-in, sığorta ehtiyatlarında təkrarsığortaçının payı üçün isə Forma №8-12-in axırıncı sütununda son dörd rüb üzrə hədlərin cəminin 1,03-ə hasili);

1.3.12. sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatı - sığorta hadisələri ili üzrə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı ilə baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatının cəmi.”

1.4. Bu Qaydaların məqsədləri üçün aparılan hesablamalarda istifadə olunan bütün göstəricilər eyni hesabat dövrünə aid olmalıdır.

## 2. Zərərlilik dərəcəsi

2.1. Zərərlilik dərəcəsi sığorta fəaliyyətinin ümumilikdə və ayrı-ayrı sığorta sinifləri üzrə səmərəliliyini, habelə sığortaçının maliyyə vəziyyətini xarakterizə edir.

2.2. Zərərlilik dərəcəsi zərər əmsalı ilə xərc əmsalının cəminə bərabərdir.

2.3. «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 15.2-ci maddəsinin məqsədləri üçün təkrarsığortaçıların payı çıxılmaqla hesablanmış zərərlilik dərəcəsinin yuxarı həddi 90 faiz müəyyən edilir.

## 3. Zərər əmsalının hesablanması

3.1. Zərər əmsalı təkrarsığortaçıların payı həm çıxılmamaqla, həm də çıxılmaqla hesablanır.

3.2. Zərər əmsalı təkrarsığortaçıların payı çıxılmamaqla ayrılıqda hər bir sığorta sinifi və ya bütün sığorta portfeli üzrə məcmu zərərlərin qazanılmış məcmu sığorta haqlarına nisbətinə bərabərdir:

$$T=(M/Q) \times 100\%$$

burada:

T – təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalıdır;

M – məcmu zərərlərdir;

Q – qazanılmış məcmu sığorta haqlarıdır.

3.3. Zərər əmsalı təkrarsığortaçıların payı çıxılmaqla ayrılıqda hər bir sığorta sinifi və ya bütün sığorta portfeli üzrə təkrarsığortaçıların payı çıxılmaqla məcmu zərərlərin qazanılmış xalis sığorta haqlarına nisbətinə bərabərdir:

$$Tn=(Mn/Qn) \times 100\%$$

burada:

Tn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalıdır;

Mn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan məcmu zərərlərdir;

Qn – qazanılmış xalis sığorta haqlarıdır.

3.4. Qazanılmış xalis sığorta haqları aşağıdakı düsturla hesablanır:

$$Qn = A – B + C – E + Ə – (F – K)$$

burada:

Qn – qazanılmış xalis sığorta haqlarıdır;

A – hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsidir;

B – hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payıdır;

C – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarıdır;

E – hesabat dövrü ərzində təkrarsığortaya verilmiş risklər üzrə hesablanmış təkrarsığorta haqlarıdır;

Ə – hesabat dövrü ərzində təkrarsığortaya verilmiş risklər üzrə təkrarsığortalılara hesablanmış komisyon muzddur;

F – hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsidir;

K – hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payıdır.

## 4. Xərc əmsalının hesablanması

4.1. Xərc əmsalı bütün sığorta portfeli üzrə xərclərin qazanılmış məcmu sığorta haqlarına nisbətinə bərabərdir:

$$E=(X/Q) \times 100\%$$

burada:

E – xərc əmsalıdır;

X – bütün sığorta portfeli üzrə xərclərdir;

Q – bütün sığorta portfeli üzrə qazanılmış məcmu sığorta haqlarıdır.

## 5. Zərərlilik dərəcəsinin hesablanması

5.1. Hər bir sığorta sinifi və ya bütün sığorta portfeli üzrə zərərlilik dərəcəsi təkrarsığortaçıların payı həm çıxılmamaqla, həm də çıxılmaqla hesablanır.

5.2. Təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərərlilik dərəcəsi təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalının və xərc əmsalının cəminə bərabərdir:

$$Z = T + E$$

burada:

Z – təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərərlilik dərəcəsidir;

T – təkrarsığortaçıların payı çıxılmamaqla hesablanan zərər əmsalıdır;

E – xərc əmsalıdır.

5.3. Təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərərlilik dərəcəsi təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalının və xərc əmsalının cəminə bərabərdir:

$$Zn = Tn + E$$

burada:

Zn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərərlilik dərəcəsidir;

Tn – təkrarsığortaçıların payı çıxılmaqla hesablanan zərər əmsalıdır;

E – xərc əmsalıdır.

## 6. Zərərlilik dərəcəsi ilə bağlı hesabat

6.1. Zərərlilik dərəcəsi ilə bağlı hesabat sığortaçılar tərəfindən bu Qaydaların 1 nömrəli əlavəsində müəyyən edilmiş formada aşağıdakı tələblərə riayət olunmaqla rüblük olaraq tərtib edilməli və təqvim ilinin hər rübü başa çatdıqdan 20 gün müddətində həm kağız, həm də elektron daşıyıcılarda Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmalıdır:

6.1.1. hesabatda tələb olunan göstəricilər müvafiq hesabat formasına uyğun olaraq tam və düzgün əks etdirilməlidir;

6.1.2. hesabat sığortaçının İdarə Heyətinin sədri (və ya onun vəzifələrini müvəqqəti icra edən şəxs) və baş mühasibi tərəfindən imzalanmalı və həmin sığortaçının möhürü ilə təsdiq edilməlidir;

6.1.3. hesabatda müvafiq məbləğlər manatla ifadə olunmalıdır;

6.1.4. hesabatda göstərilən məbləğlər əlli qəpikdən az olduqda sıfır, əlli qəpiyə bərabər və ya ondan böyük olduqda isə bir manat kimi qeyd edilməlidir;

6.1.5. hesabatda hər hansı formada düzəliş edilməsinə və ya pozulmuş, yaxud tam və ya qismən oxunmayan məlumatların mövcudluğuna yol verilmir.

6.2. Bu Qaydaların 6.1-ci bəndində müəyyən edilmiş tələblərə uyğun gəlməyən hesabatlar təhlil edilmədən geri qaytarılır.

Forma № 10

Sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi Qaydalarına Əlavə № 1

**Sığortaçıların zərərlilik dərəcəsinin qeyri-həyat sığortası üzrə müəyyən edilməsi haqqında**

HESABAT

______________________________________

(sığortaçının adı)

«___»___________20___ c_ il tarixə

1. Sığortanın sinifləri üzrə

| | Sıra sayı | Sığortanın sinfi | Hesablanmış məcmu sığorta haqları | Hesabat dövrü ərzində qaytarılmış sığorta (təkrarsığorta) haqları | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | Qazanılmış məcmu sığorta haqları («III»+«V»-«VI») | Təkrarsığortaya verilmiş risklər üzrə hesablanmış təkrarsığorta haqları | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payı | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payı | Təkrarsığortaya verilmiş risklər üzrə hesablanmış komisyon muzdu | Qazanılmış xalis sığorta haqları («V»-«IX»+«III»-«VIII»-(«VI»-«X»)) | Sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişləri | Sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərində təkrarsığortaçıların payı | Sığorta hadisələri ili üzrə xalis sığorta ödənişləri(«XIII»-«XIV») | Sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatı | Sığorta hadisələri ili üzrə zərərlər ehtiyatında təkrarsığortaçıların payı çıxılmaqla hesabat dövrünün sonuna zərərlər ehtiyatı | Tənzimləmə xərcləri | Təkrarsığortaçıların payı çıxılmamaqla zərər əmsalı, % («XIII»+«XVI»+«XVIII») /(«VII»-«IV») | Təkrarsığortaçıların payı çıxılmaqla zərər əmsalı, % («XV»+«XVII»+«XVIII») /(«XII»-«IV») |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | XIII | XIV | XV | XVI | XVII | XVIII | XIX | XX |
| A1 | 1 | fərdi qəza və xəstəlik sığortası | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| A2 | 2 | tibbi sığorta | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| A3 | 3 | əmlakın yanğından və digər risklərdən sığortası | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ~~A4~~ | ~~4~~ | ~~avtonəqliyyat vasitələrinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A5~~ | ~~5~~ | ~~dəmiryol nəqliyyatı vasitələrinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A6~~ | ~~6~~ | ~~hava nəqliyyatı vasitələrinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A7~~ | ~~7~~ | ~~su nəqliyyatı vasitələrinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A8~~ | ~~8~~ | ~~yüklərin (nəqliyyat) sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A9~~ | ~~9~~ | ~~kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A10~~ | ~~10~~ | ~~kənd təsərrüfatı heyvanlarının sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A11~~ | ~~11~~ | ~~işçilərin dələduzluğu sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A12~~ | ~~12~~ | ~~pul və pul sənədlərinin saxtalaşdırılmasından sığorta~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A13~~ | ~~13~~ | ~~avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ~~A14~~ | ~~14~~ | ~~dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A15~~ | ~~15~~ | ~~hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A16~~ | ~~16~~ | ~~su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A17~~ | ~~17~~ | ~~yük daşıyanın mülki məsuliyyətinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A18~~ | ~~18~~ | ~~mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A19~~ | ~~19~~ | ~~peşə məsuliyyətinin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A20~~ | ~~20~~ | ~~işəgötürənin məsuliyyət sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A21~~ | ~~21~~ | ~~ümumi mülki məsuliyyətin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A22~~ | ~~22~~ | ~~kreditlərin sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A23~~ | ~~23~~ | ~~ipoteka sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ~~A24~~ | ~~24~~ | ~~əmlakın bazar dəyərinin düşməsi riskindən sığorta~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A25~~ | ~~25~~ | ~~işin dayanması ilə bağlı risklərdən sığorta~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A26~~ | ~~26~~ | ~~nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A27~~ | ~~27~~ | ~~sərnişinlərin icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A28~~ | ~~28~~ | ~~icbari ekoloji sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A29~~ | ~~29~~ | ~~yanğından icbari sığorta~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A30~~ | ~~30~~ | ~~Milli Məclis deputatlarının icbari şəxsi sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A31~~ | ~~31~~ | ~~tibbi personalın AİDS-dən sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A32~~ | ~~32~~ | ~~hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A33~~ | ~~33~~ | ~~məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A34~~ | ~~34~~ | ~~dövlət qulluqçularının icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A35~~ | ~~35~~ | ~~diplomatik nümayəndələrin icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ~~A36~~ | ~~36~~ | ~~auditorların peşə məsuliyyətinin icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A37~~ | ~~37~~ | ~~daşınmaz əmlakın icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A38~~ | ~~38~~ | ~~daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A39~~ | ~~39~~ | ~~avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |
| ~~A40~~ | ~~40~~ | ~~sərnişinlərin icbari fərdi qəza sığortası~~ | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' | ' |

## 2. Bütün sığorta portfeli üzrə

| | Hesablanmış məcmu sığorta haqları | Hesabat dövrü ərzində qaytarılmış sığorta (təkrarsığorta) haqları | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hisssəsi | Qazanılmış məcmu sığorta haqları ( «I»+«III»-«IV») | Təkrarsığortaya verilmiş risklər üzrə hesablanmış təkrarsığorta haqları | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payı | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatında təkrarsığortaçıların payı | Təkrarsığortaya verilmiş risklər üzrə hesablanmış komisyon muzdu | Qazanılmış xalis sığorta haqları («III»-«VII»+«I»-«VI»+«IX»-(«IV»-«VIII»)) | Sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişləri | Sığorta hadisələri ili üzrə məcmu sığorta ödənişlərində təkrarsığortaçıların payı | Sığorta hadisələri ili üzrə xalis sığorta ödənişləri («XI»-«XII») | Sığorta hadisələri ili üzrə hesabat dövrünün sonuna zərərlər ehtiyatı | Sığorta hadisələri ili üzrə zərərlər ehtiyatında təkrarsığortaçıların payı çıxılmaqla hesabat dövrünün sonuna zərərlər ehtiyatı | Tənzimləmə xərcləri | Xərclər | Təkrarsığortaçıların payı çıxılmamaqla zərər əmsalı, % («XI»+«XIV»+«XVI») /(«V»-«II») | Təkrarsığortaçıların payı çıxılmaqla zərər əmsalı, % («XIII»+«XV»+«XVI») /(«X»-«II») | Xərc əmsalı, % («XVII» /(«V»-«II»)) | Təkrarsığortaçıların payı çıxılmamaqla zərərlilik dərəcəsi, % («XVIII»+«XX») | Təkrarsığortaçıların payı çıxılmaqla zərərlilik dərəcəsi, % («XIX»+«XX») |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | XIII | XIV | XV | XVI | XVII | XVIII | XIX | XX | XXI | XXII |
| A1 | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |

İdarə heyətinin sədri ___________________

M.Y.

Baş mühasib ____________________

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq edilmişdir.*

*2 nömrəli əlavə*

Sığortaçıların rəhbər işçisi vəzifələrinə namizədlər ~~və~~ müvafiq sığorta vasitəçiliyi üzrə fəaliyyətə lisenziya, *həmçinin aktuari fəaliyyətinə aktuari şəhadətnaməsi* almaq istəyən fiziki şəxslər üçün attestasiyanın təşkili və keçirilməsi[4]

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. *Bu Qaydalar "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 735 nömrəli Fərmanının 3.1.-ci bəndinə əsasən hazırlanmış və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 37.2.7-ci, 81-3.3-cü və 83.2.2-ci maddələrinə uyğun olaraq, sığortaçının rəhbər işçisi vəzifəsinə təyin edilən və ya belə vəzifəni müvəqqəti icra etməsi nəzərdə tutulan, habelə sığorta vasitəçiliyi üzrə müvafiq lisenziya almaq və ya aktuari fəaliyyətini həyata keçirməyə görə aktuari şəhadətnaməsi almaq istəyən fiziki şəxslər üçün attestasiyanın (bundan sonra "attestasiya" adlandırılacaq) keçirilməsi qaydalarını müəyyən edir.*[5]

1.2. Bu Qaydalarda istifadə olunan "sığortaçı" anlayışı sığortaçılarla yanaşı, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları da əhatə edir.

## 2. Attestasiyanın keçirilmə forması

2.1. Attestasiya sığorta nəzarəti orqanı tərəfindən iki mərhələdə keçirilir:

2.1.1. birinci mərhələ - şəxsin sığortaçının rəhbər işçisi və ya fiziki şəxs olan müvafiq *sığorta vasitəçisi, yaxud aktuari ilə bağlı bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş* sənədlərin təqdim edilməsi və onlara sığorta nəzarəti orqanında baxılması;[6]

2.1.2. ikinci mərhələ - şəxsin təyin edilməsi nəzərdə tutulan rəhbər vəzifənin (sığortaçının direktorlar şurasının üzvləri istisna edilməklə) və ya lisenziya alınması üçün müraciət edilən sığorta vasitəçiliyi, *yaxud aktuari* fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla təqdim olunan test tapşırıqlarının cavablandırılması.[7]

## 3. Attestasiyanın birinci mərhələsi ilə bağlı tələblər

3.1. Attestasiyanın birinci mərhələsində aşağıdakı sənədlər şəxsin ərizəsi ilə birlikdə sığorta nəzarəti orqanına təqdim edilməlidir:

3.1.1. sığortaçının rəhbər işçisi vəzifəsinə təyin edilməsi nəzərdə tutulmuş şəxsin

3.1.1.1. şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surəti;[8]

3.1.1.2. faktiki yaşadığı ünvanı, elektron poçt ünvanı və telefon nömrələrini özündə əks etdirən yazılı məlumat;

~~3.1.1.3. Fiziki şəxsin əmək kitabçasının notariat qaydasında və ya son iş yerinin möhürü ilə təsdiq edilmiş surəti;~~[9]

~~3.1.1.4. Xarici fiziki şəxslər üçün iş təcrübəsini təsdiq edən sənədlərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq olunmuş surəti;~~

3.1.1.5. ~~Fiziki şəxsin~~ vətəndaş qüsursuzluğu barədə notariat qaydasında təsdiq edilmiş ərizəsi;[10]

3.1.1.6. Xarici fiziki şəxslərin vətəndaşı və daimi yaşayış yeri olan ölkənin müvafiq dövlət orqanlarından "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.41-ci maddəsi ilə müəyyən olunmuş vətəndaş qüsursuzluğunu təsdiq edən sənəd;

3.1.2. müvafiq sığorta vasitəçiliyi fəaliyyətinə lisenziya almaq istəyən şəxsin

3.1.2.1. şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surəti;[11]

3.1.2.2. faktiki yaşadığı ünvanı, elektron poçt ünvanı və telefon nömrələrini özündə əks etdirən yazılı məlumat;

~~3.1.2.3. şəxsin hüquqi şəxs olan sığorta vasitəçisinin rəhbər işçisi vəzifəsinə təyin edilməsi nəzərdə tutulduqda ali təhsili haqqında sənədin notariat qaydasında təsdiq edilmiş surəti;~~[12]

3.1.2.4. müvafiq vergi orqanında qeydiyyata alınma haqqında sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

3.1.2.5. vətəndaş qüsursuzluğu barədə notariat qaydasında təsdiq edilmiş ərizə.

*3.1.3. aktuari şəhadətnaməsi almaq istəyən şəxsin:*[13]

*3.1.3.1. şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surəti;*

*3.1.3.2. faktiki yaşadığı ünvanı, elektron poçt ünvanı və telefon nömrələrini özündə əks etdirən yazılı məlumat;*

*3.1.3.3. ali təhsil haqqında sənədin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surəti;*

*3.1.3.4. vətəndaş qüsursuzluğu barədə notariat qaydasında təsdiq edilmiş ərizəsi.*

3.2. Şəxs müvafiq rəhbər vəzifə və ya sığorta vasitəçiliyi, *yaxud aktuari* fəaliyyəti ilə bağlı *"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq olaraq 37-ci, 83.2-ci və 83-3.2-ci maddələrində* müəyyən edilmiş digər tələblərə uyğun olduqda sığorta nəzarəti orqanı vətəndaş qüsursuzluğu barədə ərizə daxil olduğu tarixdən 3 iş günü müddətində bu barədə arayış təqdim edilməsi üçün sorğu ilə səlahiyyətli dövlət orqanına müraciət etməlidir.[14]

~~3.3. Fiziki şəxs müvafiq rəhbər vəzifə və ya sığorta vasitəçiliyi fəaliyyəti ilə bağlı qanunvericilikdə müəyyən edilmiş digər tələblərə uyğun olmadıqda, onun vətəndaş qüsursuzluğu barədə arayışın təqdim edilməsi üçün səlahiyyətli dövlət orqanına sorğu göndərilmədən, sənədlərdən sonuncusunun təqdim olunduğu tarixdən 5 iş günü müddətində şəxsin qanunvericiliyin hansı tələbinə uyğun gəlməməsi barədə sığorta nəzarəti orqanı tərəfindən ona rəsmi bildiriş göndərilir.~~

~~3.4. Fiziki şəxs müvafiq rəhbər vəzifə və ya sığorta vasitəçiliyi fəaliyyəti ilə bağlı qanunvericilikdə müəyyən edilmiş digər tələblərə uyğun olduğu halda sığorta nəzarəti orqanı vətəndaş qüsursuzluğu barədə səlahiyyətli dövlət orqanının arayışını aldıqdan 5 iş günü müddətində şəxsin vətəndaş qüsursuzluğu ilə bağlı tələbə uyğun gəlib-gəlməməsi barədə ona rəsmi bildiriş göndərir.~~

3.5. ~~Xarici fiziki şəxsin bu Qaydaların 3.1-ci bəndində müəyyən edilmiş bəndində müəyyən edilmiş tələblərə uyğunluğu barədə sənədlərə, həmin sənədlərdən sonuncusunun təqdim olunduğu tarixdən 5 iş günü ərzində sığorta nəzarəti orqanı tərəfindən baxılaraq, müvafiq rəhbər vəzifəyə və ya sığorta vasitəçiliyi fəaliyyəti ilə bağlı qanunvericilikdə müəyyən edilmiş tələblərə uyğun gəlib-gəlməməsi barədə ona rəsmi bildiriş göndərilir.~~[15]

## 4. Attestasiyanın ikinci mərhələsi ilə bağlı tələblər

4.1. Attestasiyanın birinci mərhələsinin tələblərinə uyğun hesab edilən şəxsə onun yazılı təqdim etdiyi məlumatda göstərdiyi ünvanına elektron və ya digər yazılı formada göndərilən bildirişdə o, attestasiyanın ikinci mərhələsində iştirak etməyə dəvət olunur. Attestasiyanın ikinci mərhələsinin keçirilmə forması olan test imtahanının (bundan sonra "imtahan" adlandırılacaq) vaxtı və yeri barədə sığorta nəzarəti orqanının rəsmi internet səhifəsində elan verilir. Şəxs imtahanda iştirak etmək üçün elanda göstərilmiş formada imtahanda iştirakını təsdiq edir.[16]

4.2. ~~Sığortaçının rəhbər işçisi üçün və ya fiziki şəxs olan müvafiq sığorta vasitəçisi üçün «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər tələblərə uyğun gəlməyən şəxs test imtahanına buraxılmır.~~[17]

4.3. Azərbaycan dilini mükəmməl bilməyən xarici fiziki şəxslər test imtahanında tərcüməçi cəlb etməklə iştirak etmək hüququna malikdirlər.

## 5. İmtahanının keçirilməsi prosesi və nəticələrin qiymətləndirilməsi

5.1. İmtahanın keçirilməsinə 3 saat vaxt ayrılır.

5.2. İmtahan yazılı şəkildə keçirilir və iştirakçıların hər birinə 100 test tapşırığı təqdim edilir. Hər bir test tapşırığında yalnız biri düzgün olan 4 cavab variantı təklif olunur.

5.3. Test tapşırıqlarında verilən suallar rəhbər işçi vəzifələrinin, yaxud sığorta vasitəçiliyi fəaliyyətinin *və ya aktuari fəaliyyətinin* xüsusiyyətləri nəzərə alınmaqla fərqləndirilir.[18]

5.4. Hər düzgün cavab 1 balla qiymətləndirilir. Bir test tapşırığında düzgün cavabın da daxil olduğu iki və ya daha çox cavabı düzgün hesab edən iştirakçının müvafiq cavabı səhv cavab kimi qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

5.5. İmtahan zamanı yazılı, elektron və ya digər hər hansı məlumat materiallarından istifadə, həmçinin test tapşırıqlarının məzmunu ilə bağlı başqa şəxslərlə danışmaq qəti qadağandır. Bu qadağaya əməl etməyən şəxsin imtahan nəticələri ləğv edilir.

5.6. İştirakçı ən azı 70 (yetmiş) test tapşırığına düzgün cavab verdikdə attestasiyadan keçmiş hesab olunur.

## 6. Attestasiyanın nəticələri barədə məlumat[19]

Attestasiyadan müvəffəqiyyətlə keçən iştirakçılar barədə məlumat imtahandan sonrakı 3 iş günü müddətində sığorta nəzarəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir və attestasiyadan keçmiş şəxslərə imtahanda topladığı balın da əks etdirildiyi arayış şəxsən təqdim olunur.

## 7. Attestasiya nəticələrinin qüvvəsi

Attestasiyadan keçmiş, lakin imtahan tarixindən sonrakı 2 il ərzində sığorta sektorunda ən azı 6 ay müddətində ştat işçisi kimi işləməyən və ya həmin müddətdə müvafiq sığorta vasitəçiliyi fəaliyyəti ilə məşğul olmayan şəxslərin imtahan nəticələri qüvvədən düşmüş hesab edilir.

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq edilmişdir.*

*3 nömrəli əlavə*

Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici kapital payının son həddinin müəyyən edilməsi və bu payın hesablanması

## Q A Y D A L A R I[20]

1. Bu Qaydalar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsinə və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 735 nömrəli Fərmanının 3.1.-ci bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici kapital payının son həddini, habelə bu payın hesablanması qaydalarını müəyyən edir.

2. Bu Qaydalarda istifadə olunan "sığortaçı" və "xarici sığortaçı" anlayışı sığortaçılar və xarici sığortaçılarla yanaşı, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları və xarici təkrarsığortaçıları da, habelə "xarici sığortaçı" anlayışı həm də Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçıların nizamnamə kapitalında bilavasitə və ya bu Qaydalarda nəzərdə tutulmuş qaydada dolayısı ilə iştirak etmək hüququ olan şəxsləri də əhatə edir.

3. Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici kapital payının son həddi aşağıdakı kimi müəyyən edilir:[21]

3.1. 2015-ci il 01 yanvar tarixinədək – 50 %;
3.2. 2015-ci ilin 01 yanvar tarixindən etibarən – 70 %;
3.3. 2016-cı ilin 01 yanvar tarixindən etibarən – 85 %;
3.4. 2017-ci ilin 01 yanvar tarixindən etibarən – 100 %.

4. Xarici fiziki və ya hüquqi şəxs Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının yerli hüquqi şəxs olan səhmdarlarının nizamnamə kapitalında bilavasitə iştirak edərsə, həmin xarici fiziki və ya hüquqi şəxs Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının nizamnamə kapitalında dolayısı ilə iştirak etmiş hesab olunur.[22]

5. Xarici fiziki və ya hüquqi şəxs Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının nizamnamə kapitalında iştirak edirsə, Azərbaycan Respublikasında fəaliyyət

göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici kapital paylarının məcmu məbləğini hesablayarkən xarici fiziki və ya hüquqi şəxsin bilavasitə iştirak payı qəbul edilir.[23]

6. Xarici fiziki və ya hüquqi şəxs Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının nizamnamə kapitalında dolayısı ilə iştirak edirsə, belə iştirakı ifadə edən pay aşağıdakı düsturla hesablanır:[24]

$$A = B \times C \times D,$$

burada:

A - Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının nizamnamə kapitalında xarici fiziki və ya hüquqi şəxsin dolayısı ilə iştirak payıdır;[25]

B - Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının səhmdarı olan yerli hüquqi şəxsin nizamnamə kapitalında xarici fiziki və ya hüquqi şəxsin bilavasitə iştirak payıdır;

C - Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının səhmdarı olan yerli hüquqi şəxsin nizamnamə kapitalında xarici fiziki və ya hüquqi şəxsin bilavasitə iştirak payının faiz nisbətidir;

D - Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının nizamnamə kapitalında onun səhmdarı olan, bu Qaydaların 4-cü bəndində nəzərdə tutulmuş yerli hüquqi şəxsin iştirak payının faiz nisbətidir;

7. Bu Qaydaların 3-cü bəndinin məqsədləri üçün ~~xarici sığortaçıların~~ Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçıların nizamnamə kapitallarındakı bu Qaydaların 5-ci və 6-cı bəndinə müvafiq olaraq müəyyən edilən bilavasitə və (və ya) dolayısı ilə iştirakı ifadə edən xarici kapital payları cəmlənir və alınan məbləğin Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğinə faiz nisbəti müəyyən edilir.[26]

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq edilmişdir.*

*4 nömrəli əlavə*

## Sığortaçılarda daxili auditin aparılması

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.3. Bu Qaydalar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun (bundan sonra "Qanun" adlandırılacaq) 35.3-cü maddəsinə əsasən, həmin Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, habelə Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyasının prinsip və standartlarına uyğun olaraq hazırlanmış və sığortaçılarda daxili auditin aparılması qaydalarını müəyyən edir.

1.4. Sığortaçılarda, habelə onların filial və nümayəndəliklərində daxili auditin aparılması qaydaları qanunvericiliyin tələblərinə, sığortaçının təsis və daxili sənədlərinə uyğun olaraq bu Qaydalarda müəyyən olunan xüsusiyyətlər nəzərə alınmaqla həyata keçirilir.

1.5. Bu Qaydalarda istifadə olunan "sığortaçı" anlayışı sığortaçılarla yanaşı, Azərbaycan Respublikasının «Sığorta fəaliyyəti haqqında» Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları da əhatə edir.

### 2. Daxili auditin məqsədi və təyinatı

2.1. Sığortaçının daxili audit sisteminin əsas məqsədi risklərin idarə olunmasının, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsinə və inkişafına sistemli yanaşmaqla onun struktur bölmələrinin və işçilərinin, filial və nümayəndəliklərinin bu Qaydaların 2.2-ci bəndində müəyyən edilmiş istiqamətlərdə qanunvericiliyin tələblərinə riayət etməsinə, sığortaçının qanunvericiliklə, o cümlədən bu Qaydalarla nəzərdə tutulan daxili sənədlərinin mövcud olmasına və onlara əməl edilməsinə, sığortaçı tərəfindən həyata keçirilən əməliyyatların xarakterinə və miqyasına, o cümlədən onun fəaliyyət risklərinin azaldılmasına adekvat olaraq lazımi etibarlılıq səviyyəsinin təmin edilməsinə nəzarət etməkdir.

2.2. Daxili audit xidməti sığortaçıda aşağıdakı istiqamətlərdə daxili auditi təmin etməlidir:

2.2.1. sığorta fəaliyyətinin və qanunla həyata keçirilməsinə icazə verilmiş digər fəaliyyət növlərinin qanunauyğunluğu;

2.2.2. sığortaçı tərəfindən, həmçinin onun struktur bölmələri, habelə filial və nümayəndəlikləri tərəfindən qanunvericiliyin tələblərinə, o cümlədən mühasibat uçotu

tələblərinə və sığortaçının müvafiq daxili sənədlərində müəyyən edilmiş daxili prosedurlara uyğun fəaliyyətin həyata keçirilməsi;

2.2.3. sığortaçının maliyyə sabitliyi və ödəmə qabiliyyəti üzrə ardıcıl, sistemli təhlilin və qiymətləndirmənin həyata keçirilməsi;

2.2.4. sığorta nəzarəti orqanı tərəfindən müəyyən edilmiş normativlərin və icrası məcburi olan göstərişlərin, norma və məhdudiyyətlərin yerinə yetirilməsi;

2.2.5. sığorta nəzarəti orqanının, habelə idarəetmə orqanlarının qəbul etdikləri qərarların sığortaçı tərəfindən icrasına nəzarət tədbirlərinin səmərəliliyinin yoxlanılması, qiymətləndirilməsi və bu sahədə mövcud nöqsanların təcili aradan qaldırılması barədə tədbirlər görülməsi;

2.2.6. qəbul olunan qərarların, o cümlədən daxili və kənar yoxlamalar zamanı aşkar olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasının icrasına nəzarət tədbirlərinin səmərəliliyinin yoxlanılması və qiymətləndirilməsi;

2.2.7. aktivlər və öhdəliklərin idarə edilməsi sisteminin səmərəliliyinin, o cümlədən potensial risklərin və sığorta müqavilələrinin portfelinin (məcmusunun) ümumilikdə, yaxud ayrı-ayrı sığorta növləri üzrə qiymətləndirilməsi;

2.2.8. sığorta fəaliyyəti və qanunla həyata keçirilməsinə icazə verilmiş digər fəaliyyət zamanı meydana çıxan risklərin idarə olunması, o cümlədən bu risklərin azaldılması üzrə monitorinqin həyata keçirilməsi;

2.2.9. sığorta agentlərinin fəaliyyətinin qanunauyğunluğu və belə fəaliyyətlə bağlı mümkün olan risklərin nəzarətdə saxlanması;

2.2.10. sığortaçının hesabatlarının qanunvericiliyə, o cümlədən beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olması;

## 3. Daxili audit zamanı nəzərə alınmalı olan risklər

3.1. Sığorta fəaliyyətinin və qanunla həyata keçirilməsinə icazə verilmiş digər fəaliyyətin həyata keçirilməsi zamanı müəyyən itkilərin və ya zərərlərin meydana çıxması ehtimalı sığortaçının riskləri hesab edilir.

3.2. Daxili auditin həyata keçirilməsi prosesində sığortaçının risklərinin idarə olunması və monitorinqi zamanı aşağıdakı əsas risk növləri fərqləndirilməlidir:

3.2.1. kredit riski – digər tərəfin müqavilə şərtlərini yerinə yetirmək qabiliyyətinin olmaması və ya müqavilənin əsas şərtlərini və ya sığortaçıya münasibətdə digər öhdəlikləri pozması nəticəsində meydana çıxan xərclərin və ya zərərlərin yaranma riski, o cümlədən ölkə xaricindən ödəmələrin köçürülməsi zamanı meydana çıxan məhdudiyyət və maneələr;

3.2.2. hüquq riski – sığortaçı tərəfindən qanunvericiliyin tələblərinin pozulması və həyata keçirilən əməliyyatların daxili sənədlərlə, xaricilərə münasibətdə isə digər ölkələrin qanunvericilikləri ilə uyğunsuzluğu nəticəsində xərclərin və ya zərərlərin yaranma riski;

3.2.3. əməliyyat riski – sığortaçı tərəfindən daxili nəzarətin təşkilinə dair tələblərin pozulması (yerinə yetirilməməsi), habelə informasiya texnologiyaları sistemlərində

əhəmiyyətli nasazlıqların baş verməsi nəticəsində meydana çıxan xərclərin (zərərlərin) yaranma riski;

3.2.4. likvidliyin itirilməsi riski - sığortaçının öz vəzifələrini yerinə yetirməməsi və ya vaxtinda yerinə yetirməməsi riski;

3.2.5. bazar riski – bazar qiymətlərinin dəyişməsi nəticəsində sığortaçının vəsaitləri və gəliri üçün yarana biləcək mövcud və ya gələcək təhlükə. Bazar riski qiymət, valyuta və faiz risklərinə bölünür:

3.2.5.1 qiymət riski – maliyyə bazarlarında dəyişikliyin baş verməsinin sığortaçının maliyyə alətlərinin bazar dəyərinə təsiri nəticəsində xərclərin və ya zərərlərin yaranması riski;

3.2.5.2 valyuta riski – sığortaçının öz fəaliyyətini həyata keçirməsi zamanı müəyyən beynəlxalq valyuta məzənnəsinin dəyişməsi ilə əlaqədar xərclərin və ya zərərlərin yaranması riski;

3.2.5.3 faiz riski – investisiyalar üzrə faiz dərəcələrinin dəyişməsi ilə əlaqədar xərclərin və ya zərərlərin yaranması riski;

3.2.6. nüfuz riski – mənfi ictimai rəy və sığortaçıya olan etirbarın azalması nəticəsində xərclərin və zərərlərin yaranması riski;

3.2.7. portfel riski – sığortaçının likvidliyinin itirilməsi, gəlirliliyinin və vəsaitlərinin investisiya qoyulduğu qiymətli kağızların məzənnəsinin aşağı düşməsi, həmçinin onların emitentlərinin maliyyə vəziyyətinin pisləşməsindən irəli gələn risk;

3.2.8. transfer riski – xarici ölkənin və ya xarici şəxsin ödəmə qabiliyyətinin olmaması və ya kredit risklərindən asılı olmayan səbəblərdən sığortaçı qarşısındakı öhdəliklərini yerinə yetirmək istəyində olmaması nəticəsində xərclərin və ya zərərlərin yaranması riski.

## 4. Daxili auditlə bağlı tələb olunan sənədlər

4.1. Sığortaçı daxili auditin aparılmasının hüquqi nizamlanması məqsədilə qanunvericilidə nəzərdə tutulmuş qaydada aşağıdakılar barədə daxili sənədləri təsdiq edir:

4.1.1. daxili auditin təşkili;

4.1.2. daxili audit xidmətini həyata keçirən struktur bölməsinin funksiyaları;

4.1.3. sığorta əməliyyatları üzrə aşağıdakı məsələləri əhatə edən daxili siyasət:

4.1.3.1. dəqiq və düzgün aktuar hesablamalar;

4.1.3.2. sığorta müqavilələrinin portfelinin müxtəlifliyi;

4.1.3.3. anderraytinqin peşəkar səviyyədə həyata keçirilməsi;

4.1.3.4. sığorta növlərinin işlənib hazırlanması.

4.1.4. təkrarsığorta əməliyyatları üzrə aşağıdakı məsələləri əhatə edən daxili siyasət:

4.1.4.1.təkrarsığortaçının seçilməsi meyarları və qaydaları;

4.1.4.2. xaricdə sığorta əməliyyatlarının aparılması;

4.1.4.3. təkrarsığorta müqavilələrinin təhlili;

4.1.4.4. təkrarsığorta müqavilələrinin bağlanması üzrə sığorta brokerinin seçilməsi.

4.1.5. subroqasiya tələbləri üzrə əməliyyatlar da daxil olmaqla, sığorta ödənişlərinin həyata keçirilməsi üzrə daxili siyasət;

4.1.6. maliyyə sabitliyi və ödəmə qabiliyyəti normativlərinin idarə olunması üzrə daxili siyasət;

4.1.7. sığortaçının aktivlərinin və öhdəliklərinin idarə olunması, o cümlədən likvidlik və müxtəliflik, səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş normativlərə, digər zəruri norma və hədlərə riayət olunması, aktiv və öhdəliklərin idarə olunmasına cəlb edilmiş şəxsin öhdəliklərinə və səlahiyyətlərinə əməl etməsi məsələlərini əhatə edən strategiyası və prosedur;

4.1.8. sığortaçıda işçilərin yüksək standartlara uyğunluğuna, o cümlədən cinayət yolu ilə əldə edilmiş pulların və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı səmərəli mübarizə tədbirlərinə nail olmaq üçün aşağıdakıları əhatə edən fəaliyyət proqramı:

4.1.8.1. işə götürmə zamanı tətbiq edilən daxili siyasətin, presedur və nəzarət metodlarının, o cümlədən müəyyən edilmiş tələblərin yerinə yetirilməsi, habelə peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərə aid yüksək standartlara cavab verən şəxslərin seçilməsi üçün uyğun prosedur qaydalarının işlənib hazırlanması;

4.1.8.2. işçilərin peşə hazırlığının artırılması üzrə davamlı təlim-tədris proqramları;

4.1.9. sığorta agentlərinin fəaliyyəti üzrə aşağıdakı məsələləri əhatə edən daxili siyasət:

4.1.9.1. onların mütəmadi attestasiyasının, fəaliyyətinə və hesabatlarına nəzarətin həyata keçirilməsi;

4.1.9.2. nağd pul dövriyyəsinə nəzarətin həyata keçirilməsi;

4.1.9.3. sığorta tariflərinin və sığorta haqlarının müəyyən edilməsi sahəsində agentlər və sığortaçının müvafiq bölmələri arasında məsuliyyət bölgüsü;

4.1.10.sığorta müqavilələrinin uçotunun təşkili;

4.1.11.uçot və hesabatlar da daxil olmaqla, filial və nümayəndəliklərin fəaliyyətinin təşkili və onların maliyyə hesabatlarının tərtib edilməsi;

4.1.12.konsolidə edilmiş hesabatlar da daxil olmaqla, mühasibat uçotu və maliyyə hesabatları üzrə siyasət;

4.1.13. sığortaçının vergi uçotu siyasəti;

4.1.14. sığortaçının sənədlərinin saxlanmasının təşkili, məlumatların qorunması və saxlanması qaydası, sığorta sirlərinin, kommersiya və xidməti sirlərin saxlanmasına əməl olunması üçün zəruri şərtlərin hazırlanması, kommersiya və xidməti sirləri təşkil edən sənədlərin, xəbərlərin və məlumatların siyahısının, həmçinin onun dəyişdirilməsi qaydasının müəyyən edilməsi;

4.1.15.ciddi hesabat blanklarının saxlanması, istifadəsi və ləğv edilməsinin təşkili;

4.1.16.sığortaçının kapital uçotu sahəsində daxili siyasət;

4.1.17.sığortaçının aktivlərinin investisiyaya yönəldilməsi üzrə aşağıdakı məsələləri əhatə edən daxili siyasət:

4.1.17.1. aktivlərin növündən asılı olaraq investisiya hədlərinin müəyyən edilməsi

4.1.17.2. aktivlərin sərfəli şərtlərlə alınması;

4.1.17.3. risklər yarandıqda itkilərin düzgün qiymətləndirilməsi;

4.1.17.4. kənardan vəsaitlərin cəlb edilməsi;

4.1.17.5. gözlənilməz hadisə nəticəsində yaranan hallarla bağlı ödəmə qabiliyyətinin olmaması, likvidlik riski, israfçılıq və ya vəsaitlərdən qeyri-qanuni istifadə riskindən qorunma;

4.1.18.sığorta ehtiyatlarının formalaşdırılması, bölüşdürülməsi və uçotu üzrə daxili siyasət.

4.2. Sığortaçı digər daxili qaydalar və prosedurlar işləyib hazırlaya və təsdiq edə bilər.

## 5. Daxili auditin aparılması ilə bağlı minimum tələblər

5.1. Daxili audit aşağıdakı minimum tələblərə uyğun olmalıdır:

5.1.1. Daxili audit xidməti icra orqanına münasibətdə müstəqil olmalı, bununla əlaqədar aşağıdakılar təmin olunmalıdır:

5.1.1.1. bilavasitə sığortaçının Təftiş Komissiyasına hesabat verməlidir;

5.1.1.2. funksiyalarının icrası üçün lazımi səlahiyyətlərə, o cümlədən sənədlərə və struktur bölmələrinə, filial və nümayəndəliklərə sərbəst daxil olmaq imkanına malik olmalıdır;

5.1.1.3. auditin həyata keçirilməsi qrafiki, yaxud audit zamanı sığortaçının fəaliyyəti ilə bağlı əhatə olunacaq məsələlər üzərində heç bir məhdudiyyət olmamalıdır.

5.1.2. Daxili audit xidmətinin rəhbəri və auditorları aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

5.1.2.1. iqtisadi və ya hüquqi təhsili olmalıdır;

5.1.2.2. auditin keçirilməsi üçün lazım olan biliklərə və təcrübəyə malik olmalıdır.

5.1.2.3. sığorta əməliyyatlarına və audit keçirilməsinin qaydaları ilə bağlı beynəlxalq təcrübəyə bələd olmalıdır;

5.1.2.4. yüksək əxlaqi və peşə keyfiyyətlərinə malik olmalıdır;

5.1.3. Sığortaçının aşağıdakı tələblərə cavab verən daxili audit proqramı mövcud olmalıdır:

5.1.3.1. Sığortaçının Təftiş Komissiyası tərəfindən təsdiq edilməli və müntəzəm surətdə nəzərdən keçirilməlidir;

5.1.3.2. yoxlanılan hər bir sahə və ya struktur bölməsi, habelə ümumilikdə filial və ya nümayəndəliklər üzrə ətraflı iş proqramlarını nəzərdə tutmalıdır;

5.1.3.3. auditin aydın və dəqiq təsviri olmalı, habelə auditin həcmindən asılı olaraq sığortaçının ayrı-ayrı struktur bölmələrində, ümumilikdə filial və nümayəndəliklərdə konkret əməliyyatların yoxlanılması prosedurları göstərilməlidir;

5.1.3.4. audit yoxlamalarının keçirilməsi müddətləri, hər bir sahə ilə əlaqədar olan riskdən asılı olaraq müəyyən edilməlidir.

5.1.4. Konkret sahə və ya struktur bölməsi, filial və nümayəndəlik üzrə daxili auditin başa çatmasından ən çoxu 5 iş günü müddətində tərtib olunan, auditi aparmış auditorun və Daxili audit xidmətinin rəhbərinin (sığortaçının daxili audit xidməti bir auditordan ibarət olduqda,

yalnız həmin auditorun) imzası ilə təsdiq edilən, aşağıdakı tələblərə cavab verən auditor rəyinin mövcudluğu:

5.1.4.1. auditin məqsədlərini, əhatə dairəsini, nəticələrini, o cümlədən aşkar edilən nöqsan və çatışmazlıqlar barədə hesabatı və problemlərin mövcud olduğu hər bir sahə üzrə ətraflı tövsiyələri əks etdirməlidir;

5.1.4.2. tövsiyələrdə auditin nəticələrinin qısa təsviri, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün, o cümlədən yol verilmiş qanun pozuntularına, həmçinin səmərəsiz fəaliyyətə görə müvafiq vəzifəli şəxs(lər) barəsində görülməsi zəruri hesab edilən tədbirlər və belə tədbirlərin həyata keçirilməsi müddətləri göstərilməlidir;

5.1.4.3. rəylər bilavasitə sığortaçının Direktorlar Şurasına və Təftiş Komissiyasına, rəylərin surəti isə sığortaçının İdarə Heyətinə təqdim edilməlidir;

5.1.5. Daxili auditlə bağlı müddətlər aşağıdakılar nəzərə alınmaqla, müəyyən edilməlidir:

5.1.5.1. daxili auditin yoxlamasının müddəti hər bir sahə və ya struktur bölməsi, filial və nümayəndəlik üzrə iş həcmindən asılı olaraq təyin edilməlidir;

5.1.5.2. hər bir sahə və ya struktur bölməsində, filial və ya nümayəndəlikdə daxili audit azı ildə bir dəfə olmaqla, həmin sahə və ya struktur bölməsi, filial, yaxud nümayəndəlik üzrə risk dərəcəsi nəzərə alınmaqla müəyyən edilən intervalda təyin edilir.

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq*
*edilmişdir.*

*5 nömrəli əlavə*

## Sığortaçılarda müstəqil auditin aparılmasına dair minimum tələblər

### 1. Ümumi müddəalar

1.6. Bu tələblər Azərbaycan Respublikasının «Sığorta fəaliyyəti haqqında» Qanununun 77.5-ci maddəsinə əsasən, həmin Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, habelə Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyasının prinsip və standartlarına uyğun olaraq hazırlanmış və sığortaçılarda müstəqil auditin aparılmasına dair beynəlxalq sığorta nəzarəti təcrübəsinə uyğun olaraq minimum tələbləri müəyyən edir.

1.7. Bu tələblərdə istifadə olunan "sığortaçı" anlayışı sığortaçılarla yanaşı, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları da əhatə edir.

1.8. Sığortaçının müstəqil auditinin aparılmasına dair minimum tələblər sığortaçıda müstəqil auditin əhatə etməli olduğu məsələlərin bu tələblərdə nəzərdə tutulmuş siyahısı, müstəqil auditin bu məsələləri tam və düzgün araşdırması və araşdırma nəticələrinə uyğun olaraq, əhatəli və obyektiv rəy verməsi ilə şərtlənir.

1.9. Sığortaçının müstəqil auditoru maliyyə hesabatlarında məlumatların yanlış göstərilməsi və düzgün əks etdirilməməsi hallarının aşkar olunmamasına görə məsuliyyət daşıyır.

### 2. Müstəqil auditin əhatə etdiyi məsələlər

2.1. Sığortaçıda aparılan müstəqil audit aşağıdakı məsələləri əhatə etməlidir:

2.1.1. sığortaçının təsis sənədlərinin, dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin, sığorta və ya müstəsna olaraq təkrarsığorta fəaliyyəti ilə məşğul olmaq hüququ verən lisenziyanın mövcudluğu və qanunvericiliyə uyğunluğu;

2.1.2. sığortaçının həyata keçirilən fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğunluğu;

2.1.3. sığortaçının maliyyə sabitliyi və ödəmə qabiliyyəti normativlərinin müəyyən edilməsinin düzgünlüyü, o cümlədən tələb olunan kapitalın və məcmu kapitalının hesablanmasının və məbləğinin qanunvericiliyin tələblərinə uyğunluğu;

2.1.4. sığortaçının uçot siyasətinin və mühasibat uçotunun aparılmasının, habelə aktivlərinin, öhdəliklərinin və kapitalının qiymətləndirilməsinin metod və vasitələrinin, qanunvericiliyə və beynəlxalq mühasibat uçotu standartlarına uyğunluğu;

2.1.5. sığortaçılar üçün nümunəvi hesablar planının tətbiqinin düzgünlüyü;

2.1.6. sığorta müqavilələri ilə bağlı müvafiq göstəricilərin maliyyə hesabatlarında tam və düzgün əks etdirilməsi;

2.1.7. təkrarsığorta əməliyyatlarının həyata keçirilməsinin düzgünlüyü;

2.1.8. sığorta, o cümlədən təkrarsığorta və şərikli sığorta əməliyyatlarının uçotunun aparılmasının düzgünlüyü;

2.1.9. sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığortaçının şəxsi tutumunun yuxarı həddinə dair tələblərə əməl edilməsi;

2.1.10. sığortaçının sığorta ehtiyatlarının hesablanmasının və mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü, o cümlədən sığorta ehtiyatlarının və öz vəsaitinin təmin edilməsi üçün qəbul edilən aktivlərə qoyulan investisiyaların qanunvericiliyin tələblərinə uyğunluğu;

2.1.11. sığortaçının mühasibat balansının bütün hesablarının inventarizasiyası, o cümlədən ilkin mühasibat sənədlərinin mövcudluğu, həyata keçirilmiş maliyyə və təsərrüfat əməliyyatlarının uçotda və hesabatda vaxtında, tam və dəqiq əks etdirilməsi, əməliyyatların təsdiq olunmuş uçot siyasəti, o cümlədən sığortaçının daxili sənədlərinə müvafiq qaydada hesab üzrə həyata keçirilməsi;

2.1.12. sığortaçının gəlir və xərclərinin tam və düzgün əks olunması;

2.1.13. mümkün tələblər və öhdəliklər, həmçinin balansdankənar hesablar üzrə uçotun aparılmasının düzgünlüyü;

2.1.14. vergi ödənişlərinin tam və düzgün hesablanması.

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq edilmişdir.*

6 nömrəli əlavə

## Sığorta, təkrarsığorta, sığorta brokeri və sığorta agenti fəaliyyətinə verilən lisenziyaların forması və doldurulması

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 53.4-cü və 87.1-ci maddələrinə və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 735 nömrəli Fərmanının 3.1.-ci bəndinə əsasən hazırlanmışdır və sığorta, təkrarsığorta, sığorta brokeri və sığorta agenti fəaliyyətinə verilən lisenziyaların (bundan sonra “lisenziya” adlandırılacaq) formasını və sığorta nəzarəti orqanı tərəfindən doldurulması qaydalarını, habelə bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş digər məsələləri tənzimləyir.

1.2. Lisenziya verilməsi üçün qanunvericiliklə müəyyən olunmuş müvafiq sənədlər və məlumatlar sığorta nəzarəti orqanı tərəfindən sığorta qanunvericiliyinin tələblərinə uyğun hesab edildikdən sonra müvafiq lisenziya həmin orqan tərəfindən doldurulur.

1.3. Lisenziyanın forması bu Qaydalara əlavə edilir (Əlavə № 1).

### 2. Lisenziyanın doldurulması

2.1. Lisenziya Azərbaycan dilində doldurulur.

2.2. Lisenziyada aşağıdakı qeydlər aparılır:

2.2.1. Lisenziyanın qeydiyyata alınması haqqında məlumat (qeydiyyat nömrəsi və verilmə tarixi).

2.2.2. Sığorta nəzarəti orqanının adı.

2.2.3. Həyata keçirilməsinə lisenziya verilən fəaliyyət növünün adı.

2.2.4. Hüquqi şəxslər üçün – lisenziya verilən hüquqi şəxsin adı və hüquqi ünvanı.

2.2.5. Fiziki şəxslər üçün – adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumat (şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir) və ünvanı.

2.2.6. Lisenziyanı təsdiq edən məsul şəxsin adı, soyadı və vəzifəsi.

2.3. Lisenziya sığorta nəzarəti orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

2.4. Lisenziyada gün və il rəqəmlə, ay isə sözlə yazılır.

2.5. Lisenziya blanklarında düzəlişlərin edilməsinə yol verilmir və belə blankların hüquqi qüvvəsi yoxdur.

2.6. Lisenziya oğurlanması, itirilməsi, yararsız hala düşməsi və ya məhv olması halında yeniləndikdə lisenziya blankının yuxarı sağ tərəfində iri hərflərlə «DUBLİKAT» sözü yazılır.

2.7. Azərbaycan Respublikasının lisenziyalaşdırma ilə bağlı qanunvericiliyinin tələblərinə müvafiq olaraq, lisenziya verildikdən sonra lisenziyaların vahid reyestrinin aparılması üçün lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqana müəyyən olunmuş qaydada məlumat verilir.

*“Sığorta, təkrarsığorta, sığorta brokeri*
*və sığorta agenti fəaliyyətinə verilən*
*lisenziyaların forması və doldurulması Qaydaları”na Əlavə № 1*

*Azərbaycan Respublikasının Dövlət Gerbi*

*LİSENZİYA*

№ (Lisenziyanın nömrəsi)

*Qeydiyyat nömrəsi __________ «____»______________200___il*

________________________________________

(sığorta nəzarəti orqanının adı)

________________________________________

(fəaliyyət növünün adı)

*həyata keçirməyə icazə verir.*

*Lisenziya verilib ____________________________________________*

______________________________________________________

________________________________________

(hüquqi şəxslər üçün – lisenziya verilən hüquqi
şəxsin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün – adı, atasının adı, soyadı, ünvanı,
şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, kim tərəfindən və nə vaxt verilməsi)

______________________________________________________________

*Lisenziyanın müddəti __________________________________________*

*Lisenziyanı təsdiq edən məsul şəxs __________________________________*

(adı, soyadı)

______________________________________________________

(vəzifəsi)

____________________

(imza)

*M.Y.*

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə*
*təsdiq edilmişdir.*

*7 nömrəli əlavə*

**Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması**

Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 95.3-cü maddəsinə əsasən, həmin Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 735 nömrəli Fərmanının 3.1.-ci bəndinə uyğun olaraq hazırlanmışdır və sığortaçıların, sığorta vasitəçilərinin, xarici sığortaçıların və xarici sığorta brokerlərinin, onların Azərbaycan Respublikasındakı nümayəndəliklərinin, *aktuarilərin,* həmçinin sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxslərin və müvafiq müstəqil ekspertlərin reyestrinin (bundan sonra “reyestr” adlandırılacaq) aparılması qaydalarını müəyyənləşdirir.[27]

1.2. Bu Qaydalarda istifadə olunan “sığortaçı” və “xarici sığortaçı” anlayışı sığortaçılar və xarici sığortaçılarla yanaşı, “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları və xarici təkrarsığortaçıları da əhatə edir.

1.3. Reyestr sığorta nəzarəti orqanı tərəfindən aparılır.

1.4. Sığortaçılar və sığorta vasitəçiləri sığorta nəzarəti orqanından müvafiq fəaliyyət üzrə lisenziya aldıqda, *aktuarilər isə həmin orqanda attestasiyadan keçdikdə* onlar bilavasitə sığorta nəzarəti orqanı tərəfindən reyestrə daxil edilir.[28]

## 2. Reyestrə daxil edilmək üçün təqdim olunan sənədlər və məlumatlar

2.1. Reyestrə daxil edilmək üçün, bu Qaydaların 1.4-cü bəndində nəzərdə tutulanlardan başqa, 1.1-ci bəndində nəzərdə tutulmuş sığorta bazarının digər peşəkar iştirakçıları (bundan sonra “şəxs” adlandırılacaq) aşağıdakı sənədləri sığorta nəzarəti orqanına təqdim etməlidirlər:

2.1.1. Adı, ünvanı, telefon nömrəsi, elektron poçt ünvanı (əgər varsa həmçinin faks nömrəsi və rəsmi internet səhifəsi), hüquqi şəxsin rəhbərinin adı, soyadı və vəzifəsi göstərilməklə yazılı müraciət;[29]

2.1.2. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin, təhsil haqqında müvafiq sənədin və müvafiq vergi orqanında qeydiyyata alınması haqqında şəhadətnamənin notariat qaydasında *və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada* təsdiq edilmiş surətləri;[30]

2.1.3. Azərbaycan Respublikasının hüquqi şəxslərinin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin, nizamnaməsinin və ofis binasından istifadə hüququnu təsdiq edən sənədin notariat qaydasında *və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada* təsdiq edilmiş surətləri;

2.1.4. xarici sığortaçının və ya xarici sığorta brokerinin onun rezidenti olduğu ölkənin müvafiq dövlət orqanı tərəfindən verilmiş və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təsdiq olunmuş dövlət qeydiyyatı haqqında və müvafiq fəaliyyət növünü həyata keçirmək hüququnu təsdiq edən sənəd, həmçinin əgər mövcuddursa “Standard & Poors”, “Moody's Investors Service”, “Fitch” və ya “A.M. Best” beynəlxalq reytinq təşkilatları tərəfindən verilmiş reytinqi təsdiqləyən sənəd, yaxud rəsmi məlumat;

*2.1.4–1. xarici sığortaçının və ya xarici sığorta brokerinin Azərbaycan Respublikasındakı nümayəndəliklərinin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmasını təsdiq edən şəhadətnamənin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surəti;*[31]

2.1.5. Sığorta sahəsində yardımçı fəaliyyət göstərən xarici hüquqi şəxslərin, rezidenti olduqları ölkənin müvafiq dövlət orqanı tərəfindən verilmiş və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təsdiq olunmuş dövlət qeydiyyatı haqqında sənədi;

*2.1.5–1. Müstəqil ekspertlərin rezidenti olduqları ölkənin müvafiq dövlət orqanı tərəfindən verilmiş və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təsdiq olunmuş sığorta sahəsində müstəqil ekspert fəaliyyətinin həyata keçirməsinə icazə verən sənədi, hüquqi şəxslər üçün həmçinin dövlət qeydiyyatı haqqında sənədi;*[32]

2.1.6. Azərbaycan Respublikası ərazisində daimi yaşayan xarici fiziki şəxs olan müstəqil ekspertlərin şəxsi pasportunun, Azərbaycan Respublikasının vergi orqanında qeydiyyata alınması haqqında şəhadətnamənin (qeyri-rezidentlər üçün yalnız şəxsi pasportunun) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təsdiq olunmuş surətləri;

2.1.7. Xarici fiziki şəxs sığorta brokerlərinin şəxsi pasportunun, rezidenti olduğu ölkədə fiziki şəxs vergi ödəyicisi olduğunu təsdiq edən sənədin və rezidenti olduğu ölkənin müvafiq dövlət orqanı tərəfindən verilmiş sığorta brokeri fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiqləyən sənədin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təsdiq olunmuş surətləri;

2.1.8. Azərbaycan Respublikasının hüquqi şəxslərinin filial və nümayəndəlikləri reyestrə daxil edilmək üçün əsasnamələrinin, olduqları yerdəki ofis binasından istifadə hüquqlarını təsdiq edən sənədin, habelə hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasını təsdiq edən sənədin notariat qaydasında *və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada* təsdiq edilmiş surətlərini.[33]

2.2. Sığortaçılar müvafiq vasitəçilik müqaviləsi bağladıqları və ya belə müqaviləyə xitam verdikləri sığorta agentlərinin adı (fiziki şəxs olduqda hamısının soyadı və atasının adı), sığorta agenti fəaliyyətinə verilmiş lisenziyasının tarixi və nömrəsi barədə məlumatları reyestrə daxil edilmək üçün həmin müqavilənin bağlandığı və ya belə müqaviləyə xitam verildiyi tarixdən 5 iş günü müddətində sığorta nəzarəti orqanına təqdim etməlidirlər.

### 3. Reyestr məlumatlarındakı dəyişiklik barədə xəbər vermə

3.1. Şəxs bu Qaydaların 2.1-ci bəndinə əsasən təqdim etdiyi hər hansı məlumatda və ya sənədlərin məzmununda reyestrə daxil edildikdən sonra baş verən dəyişikliklər, o cümlədən hüquqi şəxsin yenidən təşkil edilməsi və ya ləğv edilməsi, müvafiq fəaliyyətlə məşğul olmaq hüququnun məhdudlaşdırılması, dayandırılması və ya ləğv edilməsi barədə 30 gün ərzində sığorta nəzarəti orqanına məlumat verməlidir.

3.2. Şəxs reyestr məlumatlarındakı dəyişikliklər barədə vaxtında xəbər vermədikdə, bu dəyişikliyin sığorta nəzarəti orqanına məlum olduğu tarixdən, bu Qaydaların 4.1.5-ci yarımbəndində nəzərdə tutulmuş hal istisna olmaqla, həmin dəyişiklik reyestrdə qeydə alınır.

### 4. Reyestrdən çıxarılmanın əsasları

4.1. Aşağıdakı hallarda şəxs reyestrdən çıxarılır:

4.1.1. *Sığortaçının və sığorta vasitəçisinin lisenziyası ləğv edildikdə, aktuarinin şəhadətnaməsinin müddəti başa çatdıqda və ya vətəndaş qüsursuzluğunu aradan qaldıran hal baş verdikdə, həmçinin məsul aktuari bir il ərzində "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 81–7-ci maddəsinin tələbinə görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə cəlb edildikdə;*[34]

4.1.2. xarici sığortaçının və ya xarici sığorta brokerinin müvafiq olaraq təkrarsığorta və ya vasitəçilik fəaliyyəti hər hansı formada məhdudlaşdırıldıqda, dayandırıldıqda və ya ləğv edildikdə;

4.1.3. fiziki şəxs öldükdə, habelə fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə və ya hüquqi şəxs ləğv edildikdə;

4.1.4. bu Qaydaların 2-ci bəndinə uyğun olaraq təqdim edilmiş sənədlərdə yanlış məlumatların olması faktı aşkarlandıqda;

4.1.5. hüquqi şəxsin yenidən təşkili, əsas fəaliyyəti ilə bağlı hər hansı məhdudiyyət və ya qadağanın olması, müvafiq reytinqindən daha aşağı reytinq alması ilə bağlı məlumatlar sığorta nəzarəti orqanına vaxtında təqdim edilmədikdə;

4.1.6. xarici sığortaçının və ya xarici sığorta brokerinin fəaliyyətində *cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və* terrorçuluğun maliyyələşdirilməsi faktı aşkar edildikdə.[35]

## 5. Reyestrin tərtib edilməsi və reyestr məlumatlarının yayılması

5.1. Reyestrdə qeydiyyat *elektron qaydada*, bu Qaydaların 1.1-ci bəndində nəzərdə tutulmuş şəxslərin hər bir kateqoriyası üzrə müvafiq olaraq bu Qaydalara 1, 2, 3, 4, 5, *6, 7 və 8* nömrəli Əlavələrdə nəzərdə tutulmuş formalarda ayrılıqda tərtib edilərək aparılır.[36]

5.2. Yayılması və ya açıqlanması qanunla qadağan olunan məlumatlar istisna olmaqla, digər reyestr məlumatları sığorta nəzarəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir, həmçinin yazılı sorğu əsasında digər şəxslərə verilir.[37]

"Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması Qaydaları"na
Əlavə № 1

SIĞORTAÇILARIN VƏ TƏKRARSIĞORTAÇILARIN REYESTR MƏLUMATLARI

| Sıra nömrəsi | Adı, VÖEN | Dövlət qeydiyyatı tarixi | Lisenziya | | Ünvan | Telefon,faks, internet səhifəsi, elektron poçt ünvanı | Rəhbəri | Lisenziya barəsində dəyişikliklər | Qeyd | Filial və nümayəndəliklər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *verilmə tarixi* | *müddəti* | | | | | | *adı* | *bu reyestrə daxil edilmə tarixi* | *ünvanı* | *telefon, faks* | *rəhbəri* | Qeyd |
| SIĞORTAÇILAR | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | - | - | - | - |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| TƏKRARSIĞORTAÇILAR | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |

"Sığorta bazarının peşəkar
iştirakçılarının reyestrinin aparılması
Qaydaları"na Əlavə № 2

## HÜQUQİ ŞƏXS OLAN SIĞORTA BROKERLƏRİNİN REYESTR MƏLUMATLARI

| Sıra nömrəsi | Adı, VÖEN | Dövlət qeydiyyatı tarixi | Lisenziya | | İcra orqanının rəhbəri | Ünvan | Telefon, faks, internet səhifəsi, elektron poçt ünvanı | Filial və nümayəndəlik | | | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *verilmə tarixi* | *lisenziyada dəyişiklik barədə məlumat* | | | | *adı* | *bu reyestrə daxil edilmə tarixi* | *ünvanı* | *telefon, faks* | *rəhbəri* | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |

"Sığorta bazarının peşəkar iştirakçılarının
reyestrinin aparılması Qaydaları"na Əlavə № 3

**FİZİKİ ŞƏXS OLAN SIĞORTA BROKERLƏRİNİN REYESTR MƏLUMATLARI**

| **Sıra nömrəsi** | Adı, soyadı, atasının adı, VÖEN | Şəxsiyyət vəsiqəsinə dair məlumatlar | | | Müvafiq vergi orqanında qeydiyyat şəhadətnaməsi | | Lisenziya | | Ünvan | Telefon, faks, internet səhifəsi, elektron poçt ünvanı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | *seriyası və nömrəsi* | *verilmə tarixi* | vəsiqəni verən orqanın adı | *nömrəsi* | *verilmə tarixi* | *verilmə tarixi* | *lisenziya barəsində dəyişiklik* | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

"Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması Qaydaları"na Əlavə
№ 4

## HÜQUQİ ŞƏXS OLAN SIĞORTA AGENTLƏRİNİN REYESTR MƏLUMATLARI

| Sıra nömrəsi | Adı, VÖEN | Dövlət qeydiyyatı tarixi | Lisenziya | | İcra orqanının rəhbəri | Ünvan | Telefon, faks, internet səhifəsi, elektron poçt ünvanı | Xidmət göstərdiyi sığortaçının adı | Filial və nümayəndəlik | | | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *verilmə tarixi* | *lisenziyada dəyişiklik barədə məlumat* | | | | | *adı* | *bu reyestrə daxil edilmə tarixi* | *ünvanı* | *telefon, faks* | *rəhbəri* | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |

"Sığorta bazarının peşəkar iştirakçılarının
reyestrinin aparılması Qaydaları"na Əlavə № 5

## FİZİKİ ŞƏXS OLAN SIĞORTA AGENTLƏRİNİN REYESTR MƏLUMATLARI

| Sıra nömrəsi | Adı, soyadı, atasının adı, | Şəxsiyyət vəsiqəsinə dair məlumatlar | | | Müvafiq vergi orqanında qeydiyyat şəhadətnaməsi | | Lisenziya | | Ünvan | Telefon, faks, internet səhifəsi, elektron poçt ünvanı | Xidmət göstərdiyi sığortaçının adı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | *seriyası və nömrəsi* | *verilmə tarixi* | vəsiqəni verən orqanın adı | *VÖEN* | *verilmə tarixi* | *verilmə tarixi* | *lisenziya barəsində dəyişiklik* | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

XARİCİ SIĞORTAÇILARIN, XARİCİ TƏKRARSIĞORTAÇILARIN VƏ XARİCİ SIĞORTA BROKERLƏRİNİN REYESTR MƏLUMATLARI

| Sıra nömrəsi | *Adı, VÖEN* | Ölkəsi | Dövlət qeydiyyatı haqqında sənədin verilmə tarixi | Müvafiq fəaliyyət göstərmək hüququ verən sənədin verilmə tarixi və müddəti | Hüquqi şəxsin reytinqi | | Ünvan | Telefon, faks | İnternet səhifəsi, elektron poçt ünvanı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | reytinq | *müvafiq reytinq agentliyinin adı* | | | | |
| XARİCİ SIĞORTAÇI | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| XARİCİ TƏKRARSIĞORTAÇI | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| XARİCİ HÜQUQİ ŞƏXS OLAN SIĞORTA BROKERİ | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| XARİCİ FİZİKİ ŞƏXS OLAN SIĞORTA BROKERİ | | | | | | | | | | |

| Sıra nömrəsi | Adı, VÖEN | Ölkəsi | Dövlət qeydiyyatı haqqında sənədin verilmə tarixi | Müvafiq fəaliyyət göstərmək hüququ verən sənədin verilmə tarixi və müddəti | Şəxsiyyətini təsdiq edən sənəd | | Ünvan | Telefon, faks | İnternet səhifəsi, elektron poçt ünvanı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | *nömrəsi* | *verilmə tarixi* | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

XARİCİ SIĞORTAÇILARIN VƏ XARİCİ SIĞORTA BROKERLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİKLƏRİ

| Sıra nömrəsi | *Adı* | VÖEN | Ölkəsi | Dövlət qeydiyyatı haqqında sənədin verilmə tarixi | Müvafiq fəaliyyət göstərmək hüququ verən sənədin verilmə tarixi və müddəti | Rəhbəri | Ünvan | Telefon, faks | İnternet səhifəsi, elektron poçt ünvanı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

"Sığorta bazarının peşəkar iştirakçılarının
reyestrinin aparılması Qaydaları"na Əlavə № 7

SIĞORTA SAHƏSİNDƏ YARDIMÇI HÜQUQİ ŞƏXSLƏRİN VƏ MÜSTƏQİL EKSPERTLƏRİN REYESTR MƏLUMATLARI

<table>
<tr><th rowspan="2">Sıra nömrəsi</th><th rowspan="2">Adı, VÖEN</th><th rowspan="2">Hüquqi şəxsin dövlət qeydiyyatı tarixi</th><th rowspan="2">Hüquqi şəxsin rəhbəri</th><th rowspan="2">Ünvan</th><th rowspan="2">Telefon, faks, internet səhifəsi, elektron poçt ünvanı</th><th colspan="5">Sığorta sahəsində yardımçı hüquqi şəxsin və ya hüquqi şəxs olan müstəqil ekspertin filial və nümayəndəliyi</th><th rowspan="2">Qeyd</th></tr>
<tr><th>adı</th><th>bu reyestrə daxil edilmə tarixi</th><th>ünvanı</th><th>telefon, faks</th><th>rəhbəri</th></tr>
<tr><td colspan="12">SIĞORTA SAHƏSİNDƏ YARDIMÇI HÜQUQİ ŞƏXSLƏR</td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="12">HÜQUQİ ŞƏXS OLAN MÜSTƏQİL EKSPERTLƏR</td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="12">FİZİKİ ŞƏXS OLAN MÜSTƏQİL EKSPERTLƏR</td></tr>
<tr><th rowspan="2">Sıra nömrəsi</th><th rowspan="2">Adı, soyadı, atasının adı</th><th colspan="3">Şəxsiyyət vəsiqəsinə dair məlumatlar</th><th colspan="2">Müvafiq vergi orqanında qeydiyyat şəhadətnaməsi</th><th rowspan="2">Ünvan</th><th rowspan="2">Telefon, faks</th><th rowspan="2">İnternet səhifəsi</th><th rowspan="2">Elektron poçt ünvanı</th><th rowspan="2">Qeyd</th></tr>
<tr><th>seriyası və nömrəsi</th><th>verilmə tarixi</th><th>vəsiqəni verən orqanın adı</th><th>VÖEN</th><th>verilmə tarixi</th></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

"Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması Qaydaları"na Əlavə № 8[38]

## AKTUARİLƏRİN REYESTR MƏLUMATLARI

| Sıra nömrəsi | Adı, atasının adı, soyadı | Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və PİN kodu | Şəxsiyyət vəsiqəsinin verildiyi tarix | Ünvan | Telefon və elektron poçt ünvanı | Aktuari şəhadətnaməsinə dair məlumatlar | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | *nömrəsi* | *verilmə tarixi* | *son qüvvədə olma tarixi* | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

*Qeyd:* *Əcnəbilərə münasibətdə bu Formanın 3-cü və 4-cü sütunlarında qeyd olunan şəxsiyyətini təsdiq edən sənədin mümkün məlumatları qeyd edilir.*

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin

*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə*
*təsdiq edilmişdir.*

*8 nömrəli əlavə*

## Sığortaçıların investisiya əməliyyatları ilə bağlı

## Q A Y D A L A R

### 1. Ümumi müddəalar

1.1. Bu «Qaydalar» «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra «Qanun» adlandırılacaq) 62.2-ci maddəsinə əsasən hazırlanmışdır və sığortaçının öz vəsaitlərinin, həmçinin sığorta ehtiyatlarını təmin edən vəsaitlərinin investisiyaya yönəldilməsini və məcmu kapitalının hesablanması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalarda istifadə olunan «sığortaçı» anlayışı sığortaçılarla yanaşı, Qanunun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları da əhatə edir.

### 2. Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin investisiyası zamanı tətbiq edilən əmsallar

2.1. Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin ifadə olunduğu aktivlərin balans dəyərlərinə aşağıdakı əmsallar tətbiq edilir:

2.1.1. dövlət qiymətli kağızları – 100 %;

2.1.2. bank hesablarındakı pul vəsaitləri – 100 %;

2.1.3. daşınmaz əmlakın qalıq dəyəri – 80 %;

2.1.4. qeyri-dövlət qiymətli kağızları – 80 %;

2.1.5. sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları:

2.1.5.1. hesabat tarixinə ödəmə vaxtı gecikdirilməmiş və (və ya) 90 gündən az müddətə gecikdirilmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla) - 100 %;

2.1.5.2. hesabat tarixinə ödəmə vaxtı 90 gündən artıq müddətə gecikdirilmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla) – 0 %;

2.1.5.3. dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları – 100 %;

2.1.6. sığorta ehtiyatlarında təkrarsığortaçıların payı – 100 %;

2.1.7. həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri – 100 %.

## 3. Sığorta ehtiyatları təmin edən vəsaitlərin investisiyası zamanı nəzərə alınmalı olan diversifikasiya normaları

3.1. Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləğinin hesablanması zamanı həmin vəsaitlərin ifadə olunduğu aktivlərin balans dəyərlərinə bu Qaydaların 2.1-ci bəndində göstərilmiş əmsallar tətbiq edildikdən sonra alınan məbləğlərin aşağıdakı diversifikasiya normativlərinə cavab verən hissəsi qəbul edilir:

3.1.1. dövlət qiymətli kağızları - sığorta ehtiyatlarının 100 %-dək;

3.1.2. bank hesablarındakı pul vəsaitləri - bir bankda 30 %-dən artıq olmamaq şərtilə, sığorta ehtiyatlarının 80%-dək;

3.1.3. daşınmaz əmlak - bir daşınmaz əmlaka 10 %-dən artıq olmamaq şərtilə, sığorta ehtiyatlarının 20 %-dək;

3.1.4. qeyri-dövlət qiymətli kağızları - sığorta ehtiyatlarının 15 %-dək;

3.1.5. sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları üzrə:

3.1.5.1. hesabat tarixinə ödəmə vaxtı gecikdirilməmiş və (və ya) 90 gündən az müddətə gecikdirilmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla) - sığorta ehtiyatlarının 30%-dək;

3.1.5.2. dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları - sığorta ehtiyatlarının 100 %-dək;

3.1.6. sığorta ehtiyatlarında təkrarsığortaçıların payı (bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payı istisna olmaqla) sığorta ehtiyatlarının (bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı istisna olmaqla) 75 %-i həddində qəbul edilir. Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların payı faktiki məbləğdə qəbul olunur;

3.1.7. həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri – riyazi ehtiyatların (riyazi ehtiyatlarda təkrarsığortaçıların payı çıxılmaqla) 50%-dək.

3.2. Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləği həmin ehtiyatları təmin edən vəsaitlərin ifadə olunduğu aktivlərin balans dəyərlərinə bu Qaydaların 2.1-ci bəndində göstərilən əmsallar tətbiq edildikdən sonra alınmış məbləğlərin bu Qaydaların 3.1-ci bəndində göstərilən diversifikasiya normativlərini aşmayan hissələrinin cəminə bərabərdir.

3.3. Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləği həmin ehtiyatların məbləğindən az olmamalıdır.

## 4. Sığortaçının öz vəsaiti və bu vəsaitin investisiyası

4.1. Sığortaçının öz vəsaiti aşağıdakı düsturla hesablanır:

$$A = B - \max(C - \max(D - 0{,}3*E, 0), 0) - Ə - F - H - G$$

burada:

A – sığortaçının öz vəsaitidir;

B – sığortaçının aktivlərinin məcmu balans dəyəridir;

C – sığortaçının sığorta fəaliyyəti ilə bağlı balans öhdəlikləridir (sığorta ehtiyatları çıxılmaqla);

D – ödəmə vaxtı 90 gündən artıq müddətə gecikdirilməmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla);

E – sığorta ehtiyatları;

Ə – sığortaçının sığorta ehtiyatlarını təmin edən vəsaitlərinin ifadə olunduğu aktivlərinin balans dəyərlərinin məcmu məbləğidir;

F – sığortaçının sığorta fəaliyyəti ilə bağlı olmayan balans öhdəlikləridir;

G – sığortaçının balansdan kənar öhdəlikləridir (ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmidir);

H – Qanunun 63.1.1-63.1.6-cı və 64.1.1-64.1.7-ci maddələrində göstərilmiş aktivlərin qrupuna aid olmayan aktivlərin məcmu balans dəyəridir.

4.2. Sığortaçının məcmu kapitalının hesablanması məqsədilə onun öz vəsaitinin ifadə olunduğu aktivlərinin balans dəyərlərinə aşağıdakı əmsallar tətbiq edilir:

4.2.1. dövlət qiymətli kağızları – 100 %;

4.2.2. bank hesablarındakı pul vəsaitləri – 100 %;

4.2.3. daşınmaz əmlakın qalıq dəyəri – 80 %;

4.2.4. qeyri-dövlət qiymətli kağızları – 80 %;

4.2.5. digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər – 80%;

4.2.6. öz işçilərinə borc verilmiş pul vəsaitləri – 80 %.

## 5. Sığortaçının öz vəsaitlərinin investisiyası zamanı nəzərə alınmalı olan diversifikasiya normaları

5.1. Sığortaçının məcmu kapitalının hesablanması zamanı bu hesablamada nəzərə alınan aktivlərin balans dəyərlərinə bu Qaydaların 4.2-ci bəndində göstərilən əmsallar tətbiq edildikdən sonra alınan məbləğlərin həmin məbləğlərin cəminə olan nisbətinin aşağıdakı diversifikasiya normativlərinə cavab verən hissəsi qəbul edilir:

5.1.1. dövlət qiymətli kağızları – 100 %-dək;

5.1.2. bank hesablarındakı pul vəsaitləri - bir bankda 30 %-dən artıq olmamaq şərtilə, 80%-dək;

5.1.3. daşınmaz əmlak - bir daşınmaz əmlaka 10 %-dən artıq olmamaq şərtilə, 20 %-dək;

5.1.4. qeyri-dövlət qiymətli kağızları – 15 %-dək;

5.1.5. bir hüquqi şəxsin nizamnamə kapitalında payı 5 %-dən və Qanunun 66.4-cü maddəsində nəzərdə tutulmuş hallardan başqa, müvafiq hüquqi şəxsin nizamnamə

kapitalının 45 %-dən artıq olmamaq şərtilə, digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər – 10 %-dək;

5.1.6. bir işçiyə verilən borcun ümumi məbləği 1 %-dən artıq olmamaq şərtilə öz işçilərinə borc verilmiş pul vəsaitləri – 10 %-dək.

## 6. Sığortaçının məcmu kapitalının hesablanması qaydası

Məcmu kapital bu kapitalın hesablanması üçün qəbul olunan aktivlərin balans dəyərlərinə bu Qaydaların 4.2-ci bəndində göstərilən əmsallar tətbiq edildikdən sonra alınan məbləğlərin bu Qaydaların 5.1-ci bəndində göstərilən diversifikasiya normativlərini aşmayan hissələrinin cəminə bərabərdir.

## 7. Sığortaçının investisiya əməliyyatları, öz vəsaiti və məcmu kapitalı haqqında hesabatlar

7.1. İnvestisiya əməliyyatları, öz vəsaiti və məcmu kapitalı haqqında hesabatlar sığortaçılar tərəfindən bu Qaydaların 1 və 2 nömrəli əlavələrində müəyyən edilmiş müvafiq formalarda aşağıdakı tələblərə riayət olunmaqla rüblük olaraq tərtib edilməli və təqvim ilinin hər rübü başa çatdıqdan 20 gün müddətində həm kağız, həm də elektron daşıyıcılarda Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmalıdır:

7.1.1. hesabatlarda tələb olunan göstəricilər müvafiq hesabat formasına uyğun olaraq tam və düzgün əks etdirilməlidir;

7.1.2. hesabatlar sığortaçının İdarə Heyətinin sədri (və ya onun vəzifələrini müvəqqəti icra edən şəxs) və baş mühasibi tərəfindən imzalanmalı və həmin sığortaçının möhürü ilə təsdiq edilməlidir;

7.1.3. hesabatlarda müvafiq məbləğlər manatla ifadə olunmalıdır;

7.1.4. hesabatlarda göstərilən məbləğlər əlli qəpikdən az olduqda sıfır, əlli qəpiyə bərabər və ya ondan böyük olduqda isə bir manat kimi qeyd edilməlidir;

7.1.5. hesabatlarda hər hansı formada düzəliş edilməsinə və ya pozulmuş, yaxud tam və ya qismən oxunmayan məlumatların mövcudluğuna yol verilmir.

7.2. Bu Qaydaların 7.1-ci bəndində müəyyən edilmiş tələblərə uyğun gəlməyən hesabatlar təhlil edilmədən geri qaytarılır.

Forma № 6

«Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"a Əlavə № 1

**Sığortaçının öz vəsaitlərinin, həmçinin sığorta ehtiyatlarını təmin edən vəsaitlərin investisiyaya yönəldilməsi və məcmu kapitalı haqqında hesabat**

Sığortaçının (təkrarsığortaçının) adı: ________________________________________

Hesabat dövrü: ________________________________

| Sıra sayı | Aktivlərin adı | Aktivlərin balans dəyərləri | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin investisiyası | | | | | | | Sığortaçının öz vəsaitlərinin investisiyası | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin ifadə olunduğu aktivlərin balans dəyərləri | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 2.1.1-2.1.7-ci yarımbəndlərində göstərilən əmsallar % | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləğini təşkil edən məbləğlər (süt.4 x süt.5) | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 3.1.1-3.1.7-ci yarımbəndlərində göstərilən müvafiq sığorta ehtiyatları | Faktiki diversifikasiya faizləri ((süt.6 /süt.7) x 100%) | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 3.1.1-3.1.7-ci yarımbəndlərində göstərilən diversifikasiya faizləri % | Sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləğini təşkil edən məbləğlərin diversifikasiya normativlərini aşmayan hissələri (süt.8 ≤ süt.9 olduqda süt.6; əks halda süt.7 x süt.9) | Məcmu kapitalın hesablanması üçün qəbul olunan aktivlərin balans dəyərləri | Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydaların 4.2.1-4.2.6-cı yarımbəndlərində göstərilən əmsallar % | Məcmu kapitalı təşkil edən məbləğlər (süt.11 x süt.12) | Faktiki diversifikasiya faizləri ((süt.13/süt.13-ün yekunu)) x100%) | "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"ın 5.1.1-5.1.6-cı yarımbəndlərində göstərilən diversifikasiya faizləri % | Məcmu kapitalı təşkil edən məbləğlərin diversifikasiya normativlərini aşmayan hissələri (süt.14 ≤ süt.15 olduqda süt.13; əks halda süt.13-ün yekunu x süt.15) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| A | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| A<br>A1 | 1 | Dövlət qiymətli kağızları, o cümlədən emissiyalar üzrə: | | | 100 | | | | 100 | | | 100 | | | 100 | |
| | 1.1 | | | | 100 | | | | 100 | | | 100 | | | 100 | |
| | 1.2 | | | | 100 | | | | 100 | | | 100 | | | 100 | |
| | 1.3 | | | | 100 | | | | 100 | | | 100 | | | 100 | |
| | ... | | | | 100 | | | | 100 | | | 100 | | | 100 | |
| Y1 | Ara lıq yek un | | X | X | X | X | X | X | X | | X | X | X | X | X | |
| B | | | | | | | | | | | | | | | | |
| BB<br>1 | Ko du | Bank hesablarındakı pul vəsaitləri, o cümlədən bir bankda: | | | 100 | | | | 80 | | | 100 | | | 80 | |
| | | | | | 100 | | | | 30 | | | 100 | | | 30 | |
| | | | | | 100 | | | | 30 | | | 100 | | | 30 | |
| | | | | | 100 | | | | 30 | | | 100 | | | 30 | |
| | ... | | | | 100 | | | | 30 | | | 100 | | | 30 | |
| Y2 | Ara lıq yek un | | X | X | X | X | X | X | X | | X | X | X | X | X | |
| C | | | | | | | | | | | | | | | | |
| C<br>C1 | 3 | Daşınmaz əmlak, o cümlədən bir obyekt üzrə: | | | 80 | | | | 20 | | | 80 | | | 20 | |
| | 3.1 | | | | 80 | | | | 10 | | | 80 | | | 10 | |
| | 3.2 | | | | 80 | | | | 10 | | | 80 | | | 10 | |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 3.3 | | | | 80 | | | | 10 | | | 80 | | | 10 | |
| | ... | | | | 80 | | | | 10 | | | 80 | | | 10 | |
| Y3 | Ara lıq yekun | | X | X | X | X | X | X | X | | X | X | X | X | X | |
| D | | | | | | | | | | | | | | | | |
| DD1 | 4 | Qeyri-dövlət qiymətli kağızları, o cümlədən emissiyalar üzrə: | | | 80 | | | | 15 | | | 80 | | | 15 | |
| | 4.1 | | | | 80 | | | | 15 | | | 80 | | | 15 | |
| | 4.2 | | | | 80 | | | | 15 | | | 80 | | | 15 | |
| | 4.3 | | | | 80 | | | | 15 | | | 80 | | | 15 | |
| | ... | | | | 80 | | | | 15 | | | 80 | | | 15 | |
| Y4 | Ara lıq yekun | | X | X | X | X | X | X | X | | X | X | X | X | X | |
| E1 | 5 | Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | | | X | X | X | X | X | X | X | X | X | X | X | X |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| E2 | 5.1 | Ödəmə vaxtı 90 gündən artıq müddətə gecikdirilməmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla) | | | 100 | | | | 30 | | X | X | X | X | X | X |
| E3 | 5.2 | Ödəmə vaxtı 90 günədən artıq müddətə gecikdirilmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | | | 0 | | | | 0 | | X | X | X | X | X | X |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | istisna olmaqla) | | | | | | | | | | | | | | |
| E4 | 5.3 | Dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları | | | 100 | | | | 100 | | X | X | X | X | X | X |
| Y5 | Aralıq yekun | | X | X | X | X | X | X | X | | X | X | X | X | X | X |
| F1 | 6 | Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı, o cümlədən: | | | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| F2 | 6.1 | Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatında təkrarsığortaçıların | | | 100 | | | | 100 | | X | X | X | X | X | X |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | payı | | | | | | | | | | | | | | |
| F3 | 6.2 | Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı istisna olmaqla digər ehtiyatlarda təkrarsığortaçıların payı | | | 100 | | | | 50 | | X | X | X | X | X | X |
| Y6 | Aralıq yekun | | X | X | X | X | X | X | X | | X | X | X | X | X | X |
| G1 | 7 | Həyatın yığım sığortası üzrə sığortalılara və ya sığorta olunanlara borc verilmiş pul məbləğləri | | | 100 | | | | 50 | | X | X | X | X | X | X |
| H | | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| HH1 | 8 | Digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər, o cümlədən bir hüquqi şəxs üzrə: | | X | X | X | X | X | X | X | | 80 | | | 10 | |
| | 8.1 | | | X | X | X | X | X | X | X | | 80 | | | 5 | |
| | 8.2 | | | X | X | X | X | X | X | X | | 80 | | | 5 | |
| | 8.3 | | | X | X | X | X | X | X | X | | 80 | | | 5 | |
| | ... | | | X | X | X | X | X | X | X | | 80 | | | 5 | |
| Y8 | Aralıq yekun | | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | |
| I | | | | | | | | | | | | | | | | |
| II1 | 9 | Öz işçilərinə borc verilmiş pul vəsaitləri, o cümlədən bir işçi üzrə: | | X | X | X | X | X | X | X | | 80 | | | 10 | |
| | 9.1 | | | X | X | X | X | X | X | X | | 80 | | | 1 | |
| | 9.2 | | | X | X | X | X | X | X | X | | 80 | | | 1 | |
| | 9.3 | | | X | X | X | X | X | X | X | | 80 | | | 1 | |
| | ... | | | X | X | X | X | X | X | X | | 80 | | | 1 | |
| Y9 | Aralıq yekun | | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | |
| J | | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| JJ1 | 10 | Digər aktivlər, o cümlədən: | | X | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| | ... | ... | | X | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| Y10 | **CƏMİ** | | | | X | X | X | X | X | | | X | | X | X | |

Qeyd: 1. II sütunda "Digər aktivlər" dedikdə, həmin sütun üzrə 1-9-cu bəndlərdə göstərilən aktivlər istisna olmaqla balansın aktiv hissəsi üzrə digər aktivlər başa düşülür və onlar hesabatda ardıcıl (balansın aktiv hissəsinə müvafiq olaraq) yazılmalıdır.

2. X sütunun yekunu sığorta ehtiyatlarını təmin edən vəsaitlərin məcmu məbləğini göstərir.

3. XVI sütunun yekunu məcmu kapitalın məbləğini göstərir.

4. V, VI və VII sətirlər üzrə göstərilən aktivlərin balans dəyərləri tam məbləğdə IV sütuna yazılır.

5. XI sütunun yekunu Forma 7-də hesablanan sığortaçının öz vəsaitinin məbləğindən böyük olmamalıdır.

6. II sütundakı V və VI aktivlərə aid olan "Aralıq yekun" sətirləri istisna olmaqla digər "Aralıq yekun" sətirləri üzrə X sütunda konkret aktivlər qrupu üzrə ayrı-ayrı aktivlərə yönəldilən məbləğlərin həmin aktivlər üçün müəyyən edilmiş diversifikasiya faizlərini aşmayan hissələrinin cəminin və həmin aktivlər qrupuna ümumilikdə yönəldilmiş məbləğlərin bu aktivlər qrupu üçün müəyyən edilmiş diversifikasiya faizini aşmayan hissəsinin kiçiyi göstərilir.

7. II sütundakı V və VI aktivlərə aid olan "Aralıq yekun" sətirləri üzrə X sütunda konkret aktivlər qrupu üzrə ayrı-ayrı aktivlərə yönəldilən məbləğlərin həmin aktivlər üçün müəyyən edilmiş diversifikasiya faizlərini aşmayan hissələrinin cəmi göstərilir.

8. Hər bir "Aralıq yekun" sətiri üzrə XVI sütunda konkret aktivlər qrupu üzrə ayrı-ayrı aktivlərə yönəldilən məbləğlərin həmin aktivlər üçün müəyyən edilmiş diversifikasiya faizlərini aşmayan hissələrinin cəminin və həmin aktivlər qrupuna ümumilikdə yönəldilmiş məbləğlərin bu aktivlər qrupu üçün müəyyən edilmiş diversifikasiya faizini aşmayan hissəsinin kiçiyi göstərilir.

İdarə heyətinin sədri ______________________ __________

(s.a.a) (imza)

Baş mühasib __________________ __________

(s.a.a) (imza)

M.Y.

Forma № 7

"Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"a Əlavə № 2

**Sığortaçının öz vəsaiti haqqında hesabat**

Sığortaçının (təkrarsığortaçının) adı: ______________________________

Hesabat dövrü: ________________________________________

| | Sıra sayı | Göstəricilərin adı | Sətrin kodu | Məbləğ (manatla) |
|---|---|---|---|---|
| A1 | 1 | Aktivlərin məcmu dəyəri | 1000 | |
| A2 | 2 | Ödəmə vaxtı 90 gündən artıq müddətə gecikdirilməmiş sığorta və təkrarsığorta haqları (dövlət icbari şəxsi sığortaları üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları istisna olmaqla) | 1100 | |
| A3 | 3 | Sığorta ehtiyatları | 1200 | |
| A4 | 4 | Aralıq nəticə (əgər «1100»-«1200»*0,3≥0, onda «1100»-«1200»*0,3; «1100»-«1200»*0,3<0 isə onda 0) | 1300 | |
| A5 | 5 | Sığorta fəaliyyəti ilə bağlı balans öhdəlikləri (sığorta ehtiyatları çıxılmaqla) | 1400 | |
| A6 | 6 | Aralıq nəticə (əgər «1400»-«1300»≥0, onda «1400»-«1300»; «1400»-«1300»<0 isə onda 0) | 1500 | |
| A7 | 7 | Sığorta ehtiyatlarını təmin vəsaitlərin ifadə olunduğu aktivlərin məcmu dəyəri | 1600 | |
| A8 | 8 | Sığorta fəaliyyəti ilə bağlı olmayan balans öhdəlikləri | 1700 | |
| A9 | 9 | Balansdan kənar öhdəliklər (ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi) | 1800 | |
| A10 | 10 | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 63.1.1-63.1.6-cı və 64.1.1-64.1.7-ci maddələrində göstərilmiş aktivlər qrupuna aid olmayan aktivlərin məcmu dəyəri | 1900 | |
| B1 | 11 | Sığortaçının öz vəsaiti («1000»-«1500»-«1600»-«1700»-«1800»-«1900») | 2000 | |

İdarə heyətinin sədri ______________________ __________

(s.a.a) (imza)

Baş mühasib __________________ __________

(s.a.a) (imza)

M.Y.

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
*21 dekabr 2012-ci il tarixli*
*Q-11 №-li kollegiya qərarı ilə təsdiq edilmişdir.*

*9 nömrəli əlavə*

## Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası üzrə sığorta QAYDALARI

## ÜMUMİ HİSSƏ

### BÖLMƏ I. Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortasına dair ümumi şərtlər

#### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 16.5-ci maddəsinə, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır və fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortalanması üzrə qaydaları müəyyən edir.

1.2. Sığorta müqaviləsindən irəli gələn və bu Qaydalarda nəzərdə tutulmayan hallar Azərbaycan Respublikasının sığorta qanunvericiliyi ilə tənzimlənir.

1.3. Bu Qaydalar, habelə sığortalı tərəfindən doldurulmuş sığortalanma haqqında ərizə forması (Əlavə) sığorta müqaviləsinin ayrılmaz hissəsi hesab olunur.

#### 2. Əsas anlayışlar

2.0. Qaydalarda aşağıdakı əsas anlayışlar istifadə olunur:

2.0.1. minik avtomobili *(bundan sonra "avtomobil" adlandırılacaq)*- icazə verilən maksimum kütləsi 3500 kiloqramdan, oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə 8 oturacaqdan artıq olmayan avtonəqliyyat vasitəsi;

2.0.2. **sığortaçı** – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və bu Qaydalarla müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi;

2.0.3. **sığortalı** – sığorta haqqı ödəyərək avtomobili sığorta etdirən sığorta müqaviləsinin tərəfi;

2.0.4. **sığorta olunan** - sığorta müqaviləsi əsasında avtomobil ilə, o cümlədən avtomobili idarə etməsi ilə bağlı risklərlə əlaqədar əmlak mənafeləri sığortalanan fiziki şəxs;

2.0.5. avtomobilin sahibi - mülkiyyətində avtomobil olan, yaxud avtomobilə digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və s.) sahiblik edən şəxs;

2.0.6. faydalanan **şə**xs – sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi almaq hüququ olan şəxs;

2.0.7. sürücü – sığorta müqaviləsi ilə sığortalanmış avtomobili idarə etmək hüququ olan fiziki şəxs, bu Qaydaların 5.3-cü bəndində nəzərdə tutulmuş halda isə sığorta müqaviləsində ***sığorta olunan*** qismində göstərilən şəxslərin siyahısına daxil edilən və avtomobili idarə etmək hüququ olan fiziki şəxs;

2.0.8. **sığ**orta riski – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı;

2.0.9. **sığ**orta hadis**ə**si – sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

2.0.10. **sığ**orta öd**ə**ni**ş**i – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

2.0.11. **sığ**orta müqavil**ə**si – sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində avtomobilin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılmış pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi yazılı razılaşma;

2.0.12. **sığ**orta **şə**had**ə**tnam**ə**si – sığorta müqaviləsinin bağlanmasını təsdiq edən və sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

2.0.13. **sığ**orta obyekti – sığortalının, yaxud sığorta olunanın avtomobilə sahibliyi ilə bağlı qanunazidd olmayan əmlak mənafeləri;

2.0.14. **sığ**orta predmeti – Qaydaların II Bölməsinə münasibətdə sığortalanan avtomobil, III Bölməsinə münasibətdə həmin avtomobilin sahibinin mülki məsuliyyətinin yaranması halı, IV Bölməsinə münasibətdə isə həmin avtomobilin sürücüsü və sərnişinləri;

2.0.15. **sığ**orta müdd**ə**ti – sığorta müqaviləsinin qüvvədə olduğu müddət;

2.0.16. **sığ**orta haqq**ı** – sığorta etdirilən avtomobillə əlaqədar risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir;

2.0.17. **sığ**orta m**ə**bl**əğ**i - sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

2.0.18. azadolma m**ə**bl**əğ**i - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta müqaviləsi ilə təminat verilməyən və sığortalının üzərində qalan hissəsi;

2.0.19. avtomobilin istifad**ə**si – avtomobilin yollarda, həmçinin yollara bitişik olan və nəqliyyat vasitələrinin hərəkəti üçün nəzərdə tutulmuş həyətlərdə, yaşayış massivlərində, nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş dayanacaqlarda, yanacaqdoldurma məntəqələrində, müəssisə və təşkilatların ərazilərində və digər ərazilərdə nəqliyyat vasitəsinin hərəkəti ilə bağlı onun istismarı nəzərdə tutulur. Avtomobildə quraşdırılmış, lakin onun yol hərəkətində iştirakı ilə birbaşa bağlı olmayan cihazların istismarı nəqliyyat vasitəsinin istifadəsi hesab edilmir;

2.0.20. avtomobilin bazar d**ə**y**ə**ri – avtomobilin bazar şərtləri ilə müəyyən edilən qiyməti;

2.0.21. **sığ**orta t**ə**l**ə**bi - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta ödənişinin həyata keçirilməsi məqsədilə sığortaçıya ünvanladığı müraciət.

3. Sığortanın sinifləri

3.1. Bu Qaydalar fiziki şəxslərin sahibliyində olan avtomobillərin tam sığortası növü üzrə aşağıdakı sığorta siniflərini əhatə edir:

3.1.1. avtonəqliyyat vasitələrinin sığortası;

3.1.2. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası;

3.1.3. fərdi qəza və xəstəlik sığortası.

3.2. Sığortalının seçimi əsasında sığorta müqaviləsində göstərilməklə Qaydaların 3.1-ci bəndində nəzərdə tutulan bir, yaxud bir neçə sığorta sinfi üzrə Qaydaların Xüsusi hissəsininin müvafiq bölmələrində müəyyən edilən şərtlərlə sığorta təminatı verilə bilər.

4. Sığortanın predmeti və sığorta riskləri

4.1. Sığorta predmeti və sığorta riskləri Qaydaların Xüsusi Hissəsində hər bir bölmə üzrə ayrılıqda müəyyən edilir.

4.2. Qanunvericiliyə və sığorta təcrübəsinə zidd olmadığı hallarda, sığorta müqaviləsi ilə bu Qaydaların Xüsusi Hissəsində nəzərdə tutulmayan risklər, o cümlədən digər sığorta siniflərinə daxil olan risklər üzrə də sığorta təminatı verilə bilər.

5. Sığorta müqaviləsinin tərəfləri və aid olduğu digər şəxslər

5.1. ***Sığortaçı*** sığorta müqaviləsinin tərəfi olan (____________________________________) açıq səhmdar cəmiyyətidir.

*sığortaçının adı*

5.2. İstənilən fəaliyyət qabiliyyətli fiziki şəxs ***sığortalı*** qismində sığortaçı ilə sığorta müqaviləsi bağlayaraq sahibliyində olan avtomobillə bağlı riskləri bu Qaydalara əsasən sığorta etdirə bilər.

5.3. Sığorta müqaviləsində yalnız ***sığorta olunan*** qismində göstərilən şəxslərin (sürücülərin) avtomobili idarə etdiyi hallara sığorta təminatının verilməsi şərti müəyyən edilərsə, bu Qaydaların 5.4-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla başqa şəxslərin avtomobili idarə etməsi ilə bağlı risklər sığortalanmış hesab edilmir.

5.4. Sığorta müqaviləsində fiziki şəxs olan sığortalı sığorta olunan sürücülərin siyahısında göstərilmədikdə də onun sığorta olunan qismində tanınması heç bir halda, o cümlədən müqavilə şərtləri ilə məhdudlaşdırıla bilməz.

5.5. Qaydaların II Bölməsi üzrə sığorta müqaviləsində *faydalanan şəxs* qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı faydalanan şəxs sayılır. Qaydaların III Bölməsi üzrə zərərçəkən üçüncü şəxs və (və ya) ona dəymiş zərərin əvəzini ödəmiş, lakin zərərin vurulmasında təqsirli olmayan digər şəxs, habelə zərərçəkən üçüncü şəxsin ailə üzvləri faydalanan şəxs sayılır. Qaydaların IV Bölməsi üzrə sağlamlığına zərər dəymiş sürücülər və (və ya) sərnişinlər, həmçinin onların ailə üzvləri faydalanan şəxs sayılır.

6. Sığorta müqaviləsinin bağlanması

6.1. Sığorta müqaviləsi sığortalının sığortalanma haqqında ərizəsi əsasında bağlanır. Sığortalanma haqqında ərizə Qaydalara Əlavədə nəzərdə tutulmuş ərizə formasının doldurulması yolu ilə tərtib edilir.

6.2. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:

6.2.1. tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

6.2.2. Sığortalının bu Qaydalarla tanış olmasını və onun şərtləri ilə razılaşmasını yazılı qaydada təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta şəhadətnaməsinin və bu Qaydaların bir nüsxəsinin verilməsi yolu ilə.

6.3. Bu Qaydaların 6.2.2-ci yarımbəndində nəzərdə tutulmuş halda sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

7. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklərin edilməsi

7.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində ona Azərbaycan Respublikasının sığorta qanunvericiliyinə zidd olmayan və sığortalının vəziyyətini bu Qaydaların şərtlərinə nisbətən pisləşdirməyən əlavələr və dəyişikliklər edilə bilər. Bu tələbə uyğun olmayan əlavələr və dəyişikliklər etibarsızdır.

7.2. Sığortaçı sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta riskinin artmasına səbəb olan dəyişikliklər barədə məlumat aldıqda sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən sığorta haqqının artırılmasını tələb edə bilər. Sığortalı bu tələblə razılaşmadıqda, sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb edə bilər.

8. Sığorta müddəti və sığorta ərazisi

8.1. Sığortanın müddəti sığorta müqaviləsi ilə müəyyən olunur.

8.2. Tərəflərdən hər hansı birinin yazılı etirazı olmadıqda, sığorta müqaviləsi avtomatik olaraq növbəti bir il müddətinə uzadılmış hesab edilir və bu zaman sığorta müqaviləsinin uzadılmasının qüvvəyə minməsi üçün yeni bağlanmış sığorta müqaviləsinin qüvvəyə minməsi ilə bağlı bu Qaydalarda müəyyən edilmiş şərtlər tətbiq olunur. İpotekada olan avtomobillə bağlı sığorta müqaviləsinin uzadılmasına ipoteka qoyan sığortalının etirazı yalnız ipoteka saxlayanın razılığı olduqda qəbul edilə bilər.

8.3. Sığortaçının sığorta müqaviləsi üzrə öhdəlikləri sığorta müqaviləsində göstərilən sığorta müddətinin başlanması tarixindən yaranır, bu şərtlə ki, sığorta haqqı və ya onun sığorta müqaviləsi ilə müəyyən olunmuş ilk hissəsi həmin tarixdən etibarən 1 aydan gec olmayaraq ödənilmiş olsun.

8.4. Sığorta haqqı və ya onun sığorta müqaviləsi ilə müəyyən olunmuş birinci hissəsi bu Qaydaların 8.3-cü bəndində müəyyən edilmiş müddətdə ödənilmədikdə sığorta müqaviləsi qüvvədən düşmüş hesab olunur.

8.5. Sığorta haqqının sığorta müqaviləsi ilə müəyyən olunmuş növbəti hissəsi sığorta müqaviləsində həmin hissənin ödənilmə tarixi kimi müəyyən edilən tarixdən sonrakı 15 gün müddətində ödənilmədikdə, sığorta müqaviləsi həmin müddətin başa çatması ilə qüvvədən düşmüş hesab olunur.

8.6. Bu Qaydaların 10.1.8-ci yarımbəndi istisna olmaqla, sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə üçün əsas olan hər hansı digər hal yarandıqda, sığorta müqaviləsi həmin halın yarandığı andan etibarən qüvvədən düşmüş hesab edilir.

8.7. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

8.8. Sığorta müqaviləsinin qüvvədə olduğu ərazi tərəflərin yazılı razılığı ilə dəyişdirilə bilər.

9. Sığorta müqaviləsinin tərəflərinin hüquq və vəzifələri

9. 1. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq hüququna malikdir.

9. 2. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığortalanma haqqında ərizə formasında göstərilən və özünə məlum olan, sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

9. 3. Sığorta müqaviləsi bağlandıqdan sonra həmin müqavilənin qüvvədə olduğu müddət ərzində sığortalı sığorta riskinin dəyişməsinə təsir göstərə bilən aşağıdakı hallar barədə bildiyi və ya bilməli olduğu tarixdən 5 iş günü müddətində bu barədə sığortaçıya yazılı məlumat verməlidir:

9.3.1. avtomobilin özgəninkiləşdirilməsi, onun icarəyə verilməsi və ya ona olan mülkiyyət hüquqlarının digər formada itirilməsi və ya məhdudlaşması;

9.3.2. nömrəli aqreqatların – mühərrik, şassı və banın dəyişdirilməsi;

9.3.3. sığortalanmış avtomobilin sığorta hadisəsi hesab edilməyən hadisədə dəyərinin ən azı 10 faiz məbləğində zərərlə nəticələnən zədələnməsi;

9.3.4. avtomobilin dövlət qeydiyyatı haqqında sənədlərinin itməsi, oğurlanması və ya dəyişdirilməsi;

9.3.5. avtomobilin açarlarının itirilməsi və ya oğurlanması.

9. 4. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı avtomobilin sığortalanma haqqında ərizədə göstərilməyən məqsədlər üçün istifadəsinə başlanmazdan, habelə bu Qaydaların 5.3-cü bəndində nəzərdə tutulmuş halda sığorta müqaviləsində sığorta olunan qismində göstərilməyən şəxslərə avtomobili idarəetmə hüququnun verilməsindən əvvəl qeyd olunan hallara görə sığorta təminatının sığorta müqaviləsinə daxil edilməsi üçün sığortaçıya yazılı məlumat verməlidir.

9. 5. Aşağıdakı hallarda sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam yerinə yetirmiş hesab edilir:

9.5.1. Sığorta müqaviləsi üzrə verilmiş sığorta ödənişlərinin ümumi həcmi ümumi sığorta məbləğinə bərabər olduqda;

9.5.2. avtomobilin oğurlanması, qaçırılması və ya tam məhv olmasına görə sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verildikdə;

9.5.3. sığorta müqaviləsi üzrə sığorta məbləği ilk sığorta hadisəsi üzrə nəzərdə tutulduğu hallarda, ilk sığorta hadisəsi üzrə sığorta ödənişi verildikdə.

10. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi

10.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

10.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

10.1.2. Qaydaların 10.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə;

10.1.3. sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunanın öldüyü halda sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

10.1.4. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

10.1.5. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam yerinə yetirdikdə;

10.1.6. sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

10.1.7. sığortalının avtomobilə münasibətdə sığorta marağı artıq mövcud olmadıqda;

10.1.8. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbini irəli sürdükdə.

10.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, şəraitdən asılı olaraq aşağıdakılar tətbiq edilir:

10.2.1. Avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müqavilə (və ya sığorta müqaviləsinin avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortasına aid olan bölməsi) məhkəmə qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir; məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan əvvəlki tarixdə sığortalanmış avtomobilin idarə edilməsinin qanuni əsaslarla başqa şəxsə də həvalə edildiyi və bununla sığortaçının razılaşdığı hallarda isə sığorta müqaviləsi (və ya sığorta müqaviləsinin avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortasına aid olan bölməsi) üzrə sığortalının hüquq və vəzifələri həmin şəxsə keçir.

10.2.2. Avtomobillərin sığortası üzrə, habelə avtomobillərin sürücüsü və sərnişinlərinin fərdi qəza sığortası üzrə sığortalının hüquq və vəzifələrini, sığortaçının razılaşdığı hallarda, onun qəyyumu və ya himayəçisi həyata keçirir.

10.3. Sığortalı fiziki şəxs öldükdə, aşağıdakı hallarda sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilmir:

10.3.1. Sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış avtomobili qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs ölərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

10.3.2. qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir.

### 11. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

11.1. Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda, bu Qaydaların 11.2-ci bəndi nəzərə alınmaqla, müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

11.2. Sığorta müqaviləsinə bu Qaydaların 10.1.8-ci yarımbəndinə uyğun olaraq, sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) yazılı bildiriş göndərməlidir.

11.3. İpotekada olan avtomobillə bağlı sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam vermə yalnız ipoteka saxlayanın razılığı olduqda həyata keçirilə bilər.

### 12. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

12.1. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi halında sığorta haqlarının müvafiq hissəsinin qaytarılması ilə bağlı münasibətlər aşağıdakı qaydada həll edilir.

12.1.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı avtomobilə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə sığorta

~~qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla sığortaçı müqavilənin (qrup halında sığorta zamanı müqavilənin hər hansı avtomobilə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; bu halda sığortaçı sığorta haqqının qaytarılan hissəsindən sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı avtomobillə bağlı sığorta haqqına mütənasib olan) işlərin aparılması xərclərinin həmin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxır; əgər sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı avtomobil üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.~~

~~12.1.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı avtomobilə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı avtomobil üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı avtomobil üzrə ödənilmiş sığorta haqlarını) qaytarır; bu halda sığortaçı sığorta haqqının qaytarılan hissəsindən sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı avtomobillə bağlı sığorta haqqına mütənasib olan) işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxır.~~

~~12.1.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir avtomobilə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir avtomobil üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir avtomobil üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.~~

~~12.1.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir avtomobil üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 12.1.1-ci və 12.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.~~

~~12.1.5. Sığorta müqaviləsinə bu Qaydaların 10.2-ci bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir avtomobilə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydaların 12.1.3-cü və 12.1.4-cü yarımbəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.~~

~~12.2. Bu Qaydaların 12.1.1-ci, 12.1.2-ci və 12.1.5-ci yarımbəndlərinin məqsədləri üçün işlərin aparılması xərclərinin qaytarılan sığorta haqqı məbləğindən çıxılan hissəsi həmin məbləğin 25 faizindən artıq olmayan həddə müəyyən edilir.~~

~~13. Sığorta haqqı~~

~~13.1. Sığorta haqqı sığorta müqaviləsinin bu Qaydaların Xüsusi hissəsinə müvafiq olaraq tərtib edilən hər bir bölməsi üzrə ayrı-ayrılıqda müəyyən edilir.~~

~~13.2. Sığorta müqaviləsində sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.~~

~~13.3. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 13.4-cü bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.~~

~~13.4. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.~~

~~13.5. Avtomobilin oğurlanması, qaçırılması və ya tam məhvi ilə nəticələnən sığorta hadisəsi baş verdiyi hallarda həmin hadisənin baş verdiyi anadək sığorta haqqı tam məbləğdə ödənilməmişdirsə, sığortaçı sığorta haqqının ödənilməmiş hissəsini sığorta ödənişi məbləğindən çıxır. Digər hallarda sığortaçı sığorta ödənişi məbləğindən sığorta ödənişinin verildiyi tarixə sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.~~

~~14. Sığorta məbləği~~

~~14.1. Sığorta müqaviləsində sığorta məbləğinin aşağıdakı növləri müəyyən oluna bilər:~~

~~14.1.1. *Ümumi sığorta məbləği* – müəyyən edildiyi hallarda sığortaçının sığorta müqaviləsi üzrə öhdəliyinin həcmi verilmiş sığorta ödənişi məbləğində azalır.~~

~~Sığortalı ümumi sığorta məbləğinin sığorta müqaviləsində nəzərdə tutulmuş həddə bərpa edilməsini istədikdə bərpa edilməli olan hissəyə müvafiq əlavə sığorta haqqı ödəməlidir.~~

~~14.1.2. *Sığorta hadisəsi üzrə sığorta məbləği* - müəyyən edildiyi hallarda həmin məbləğ sığortaçının hər bir sığorta hadisəsi üzrə öhdəliyinin son həddi hesab edilir və sığorta hadisələrinə görə sığorta ödənişlərinin verilməsi nəticəsində azalmır.~~

~~14.1.3. *Bir sığorta hadisəsi üzrə sığorta məbləği* - müəyyən edildiyi hallarda sığortaçının sığorta müddəti ərzində baş vermiş yalnız bir hadisə üzrə həmin məbləğ həddində sığorta ödənişi vermək öhdəliyi nəzərdə tutulur.~~

~~14.2. Əgər sığorta müqaviləsində və ya onun müvafiq sığorta sinfinə aid edilən bölməsində sığorta məbləğinin bu Qaydaların 14.1-ci bəndində göstərilən hər hansı növünün tətbiq olunması nəzərdə tutulmamışdırsa, sığorta məbləğinin 14.1.1-ci yarımbənddə göstərilmiş növü tətbiq edilir.~~

~~15. Azadolma məbləği~~

~~15.1. Sığorta müqaviləsində aşağıdakı növlərdə azadolma məbləğləri müəyyən edilə bilər:~~

~~15.1.1. *Şərtli azadolma məbləği* – bu növ azadolma məbləği nəzərdə tutulduqda, sığorta hadisəsi nəticəsində zərər məbləği, avtomobilin qismən sığortası halında isə zərər məbləğinin sığorta ödənişinin həyata keçirilməsi üçün tətbiq edilən hissəsi azadolma məbləğindən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə azadolma məbləği tətbiq olunmur.~~

~~15.1.2. *Şərtsiz azadolma məbləği* - bu növ azadolma məbləği nəzərdə tutulduqda azadolma məbləği zərər məbləğindən, avtomobilin qismən sığortası halında isə zərər məbləğinin sığorta ödənişinin həyata keçirilməsi üçün tətbiq edilən hissəsindən çıxılır.~~

~~15.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş azadolma məbləğinin şərtli və ya şərtsiz olması müəyyənləşdirilməmişdirsə, həmin müqavilə üzrə şərtsiz azadolma məbləği tətbiq olunur.~~

~~15.3. Azadolma məbləği həm pul məbləği, həm də sığorta məbləğinin və ya zərər məbləğinin faiz nisbəti ilə ifadə oluna bilər.~~

~~15.4. Bu Qaydaların 39.2-ci bəndində müəyyən edilmiş hal istisna olmaqla, sığorta müqaviləsində müxtəlif hallar üçün müxtəlif azadolma məbləğləri müəyyən oluna bilər.~~

~~16. Sığorta təminatında məhdudiyyətlər~~

~~16.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, aşağıdakılara münasibətdə sığorta təminatı verilmir:~~

~~16.1.1. aşağıda göstərilən hallarda dəyən zərər:~~

~~16.1.1.1. avtomobilin sığortalanma haqqında ərizədə sorğu əsasında göstərilmiş məqsədlərdən fərqli məqsədlər üçün istifadə edilməsi, habelə təyinatı üzrə istifadə edilməməsi;~~

~~16.1.1.2. təmir və ya xidmət olunma məqsədilə texniki xidmət müəssisəsinin və ya yuyulmaq üçün avtoyuyucunun sərəncamında olduğu hallar istisna olmaqla, avtomobilin bu Qaydalara və sığorta müqaviləsinə görə sürücü hesab edilməyən şəxs tərəfindən idarə olunması;~~

~~16.1.1.3. sürücünün avtomobili alkoqolun, narkotik vasitələrin, psixotrop, toksik və güclü təsir göstərən digər maddələrin təsirindən sərxoş vəziyyətdə olmaqla idarə etməsi;~~

~~16.1.1.4. hərbi əməliyyatlar, terrorçuluq, kütləvi iğtişaşlar, tətillər, vətəndaş müharibəsi, nüvə partlayışı, radioaktiv çirklənmə;~~

~~16.1.1.5. avtomobilin təlim məqsədilə, yaxud yarışlarda, sürət müsabiqələrində, sürət sınaqlarında, avtomobil rallilərində, davamlılıq sınaqlarında istifadə edilməsi;~~

~~16.1.1.6. dövlət orqanları tərəfindən avtonəqliyyat vasitəsinin daşınması, saxlanması və ya məhv edilməsi;~~

~~16.1.1.7. sığortalının və ya sığorta olunanın sığorta hadisəsinin baş verməsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi;~~

~~16.1.1.8. avtomobilin sığorta ərazisindən kənarda istismar olunması.~~

~~16.1.1.9. avtomobilin cinayət məqsədilə istifadə edilməsi;~~

~~16.1.1.10. avtomobilin sığortalının ailə üzvləri, işçiləri və ya ona xidmət edən şəxslər tərəfindən qaçırılması, talanması və ya bunlara cəhd edilməsi;~~

~~16.1.1.11. avtomobilin təyyarələrin enib-qalxdığı təyyarə limanı, aerodrom və ya hərbi bazanın ərazisində istifadə edilməsi;~~

~~16.1.2. mənəvi zərər;~~

~~16.1.3. əldən çıxan gəlir, gəlir itkisi, işin dayanması ilə bağlı və ya digər dolayı və kommersiya itkiləri, zərərləri və xərcləri;~~

~~16.1.4. Bu Qaydaların Xüsusi hissəsində nəzərdə tutulmuş digər məhdudiyyətlər.~~

~~16.2. Sığorta müqaviləsində bu Qaydalarda müəyyən edilmiş məhdudiyyətlərdən başqa digər məhdudiyyətlər nəzərdə tutula bilməz.~~

~~16.3. Bu Qaydalarda müəyyən edilmiş hər hansı məhdudiyyət və ya məhdudiyyətlər tərəflərin razılığı ilə sığorta müqaviləsi üzrə sığorta təminatına daxil edilə bilər.~~

17. Sığorta hadisəsi barədə məlumatlandırma

17.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan sonra mümkün olan ən qısa müddət ərzində, lakin 24 saatdan gec olmamaq şərtilə sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

17.2. Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan, həmçinin faydalanan şəxs bu Qaydaların 17.1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

17.3. Bu Qaydaların 17.1-ci bəndində üzərinə məlumatlandırma vəzifəsi qoyulan şəxslərdən başqa digər şəxslər, o cümlədən səlahiyyətli dövlət orqanları və müvafiq hallarda zərərçəkən tərəfindən də sığorta hadisəsinin baş verməsi haqqında hər hansı vasitə ilə sığortaçıya xəbər verilməsi sığorta hadisəsi barədə məlumatlandırılma hesab edilir.

18. Zərərin qiymətləndirilməsi

18.1. Sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş avtomobilin, yaxud digər predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla nümayəndəsi kimi təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir.

18.2. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla təyin olunan müstəqil ekspert tərəfindən aparılır.

18.3. Zərəri qiymətləndirən şəxs sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları bu Qaydaların 18.4-cü bəndi nəzərə alınmaqla, sığortalıdan tələb etmək hüququna malikdir.

18.4. Sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin bu Qaydalara əsasən tələb olunduğu hallarda alınmasının təmin edilməsi sığortaçının və ya onun nümayəndəsinin vəzifəsidir.

18.5. Zərər məbləğinin sığortaçı tərəfindən və ya onun razılığı ilə bu Qaydaların 18.6-cı bəndində nəzərdə tutulmuş müddətdə qiymətləndirilməsinin başladığı anadək sığortalı və ya sığorta olunan aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətində saxlamadıqda və ya dəymiş zərərin müvafiq qaydada qiymətləndirilməsi üçün şərait yaratmadıqda zərərin sığortaçı tərəfindən müvafiq şəkildə qiymətləndirilməsinin nəticələrini qəbul etməlidir:

18.5.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin

görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

18.5.2. zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

18.6. Sığortaçı sığorta hadisəsinin baş verməsi barədə bu Qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 iş günü müddətində onun nümayəndəsi sığortalanmış avtomobilə və ya zərərçəkən üçüncü şəxsin əmlakına dəymiş zərərin məbləğinin qiymətləndirilməsini təşkil etmədikdə sığortalı və sığorta olunan, həmçinin zərər çəkmiş üçüncü şəxs təyin etdiyi müstəqil ekspert və ya mütəxəssis vasitəsilə əmlaka dəymiş real zərərin məbləğinin müəyyənləşdirilməsinə və aradan qaldırılmasına başlaya bilər.

18.7. Əmlaka dəymiş zərərin vaxtında qiymətləndirilməməsi aşağıdakı səbəblərdən baş verməmişdirsə, sığortalı, sığorta olunan və ya zərər çəkmiş üçüncü şəxs tərəfindən bu Qaydaların 18.6-cı bəndində nəzərdə tutulmuş qaydada həyata keçirilmiş qiymətləndirmənin nəticələrini sığortaçı qəbul etməlidir:

18.7.1. sığortalının, sığorta olunanın və ya zərər çəkmiş üçüncü şəxsin zərərin qiymətləndirilməsi üçün şərait yaratmaması;

18.7.2. səlahiyyətli dövlət orqanının qərarı nəticəsində əmlakın qiymətləndirilməsinin mümkün olmaması.

## 19. Sığorta ödənişinin verilməsinin əsasları

19.1. Sığorta ödənişi aşağıdakı sənədlər əsasında həyata keçirilir:

19.1.1. Sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya digər faydalanan şəxsin sığortaçıya ünvanladığı, sığorta hadisəsinin təfərrüatlarını və nəticəsini əks etdirən sığorta tələbi;

19.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq hər hansı dövlət orqanına məlumat verilməlidirsə, bu Qaydaların 20-ci bəndi nəzərə alınmaqla həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd; avtomobilin oğurlanması və ya qaçırılması halında bu sənəd müvafiq hadisə ilə bağlı açılan cinayət işinin nəticələri barədə Daxili İşlər Nazirliyinin səlahiyyətli orqanının (vəzifəli şəxsinin) təqdim etdiyi arayış hesab edilir.

19.1.3. zərər məbləğini təsdiqləyən sənəd;

19.1.4. müvafiq hallarda sığorta hadisəsi nəticəsində üçüncü şəxsin və ya sığorta olunanın sağlamlığına dəyən zərər üzrə xəsarətin dərəcəsi haqqında həkim arayışı, əlillik halında isə əlilliyin qrupunu, səbəbini və təyin edilməsi tarixini əks etdirən Tibbi Sosial Ekspert Komissiyasının arayışının surəti;

19.1.5. müvafiq hallarda sığorta hadisəsi nəticəsində üçüncü şəxs və ya sığorta olunan öldükdə, ölümün səbəbi haqqında tibbi arayış və ya müvafiq hallarda tibbi ekspertiza rəyi, ölüm haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surəti, vərəsənin (hüquq varisinin) vərəsəlik hüququnu təsdiq edən sənəd və onun şəxsiyyət vəsiqəsinin surəti;

19.1.6. müvafiq hallarda sığortalı və ya sığorta olunan tərəfindən əmlaka vurulan zərərin əvəzi ödənilmiş olduqda və ya sağlamlığa vurulan zərərlə əlaqədar hər hansı ödəmə həyata keçirildikdə, belə ödəməni təsdiq edən sənədin müvafiq qaydada təsdiq edilmiş surəti;

19.1.7. faydalanan şəxs fiziki şəxs olduqda onun şəxsiyyət vəsiqəsinin surəti, hüquqi şəxs olduqda isə onun sığorta ödənişini almaq üçün təyin edilən nümayəndəsinə verilmiş müvafiq etibarnamə;

19.1.8. sığorta olunanın sürücülük vəsiqəsinin surəti, həmçinin sığorta olunan avtomobilin mülkiyyətçisi olmadıqda müvafiq etibarnamənin surəti;

19.1.9. avtomobilin qeydiyyat şəhadətnaməsinin surəti, avtomobilin oğurlandığı və ya qaçırıldığı halda isə qeydiyyat şəhadətnaməsinin əsli; əgər avtomobilin qeydiyyat şəhadətnaməsi oğurlanmış və ya qaçırılmış avtomobilin içərisində qalmışdırsa, onun Daxili İşlər Nazirliyinin müvafiq orqanı tərəfindən verilən dublikatı, yaxud cinayət işinə əlavə edilmişdirsə, bu faktı təsdiq edən arayış.

20. Hadisə ilə bağlı təsdiqedici sənədin tələb olunmaması

20.0. Aşağıdakı şərtlərin hər birinin eyni zamanda mövcud olduğu hallarda sığortaçı sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı öhdəliklərinin icrası üçün bu Qaydaların 19.1.2-ci yarımbəndində nəzərdə tutulmuş sənədi tələb etməyə bilər:

- hadisənin baş verməsində təqsirli olan şəxsin müəyyən edilməsi ilə bağlı sığortaçı, sığortalı və (və ya) üçüncü şəxs arasında mübahisə olmadıqda;
- hadisə nəticəsində sağlamlığa zərər dəymədikdə.

21. Sığorta ödənişinin verilməsi və ya ödənişdən imtina edilməsi müddəti

Bu Qaydaların 19.1-ci bəndində göstərilən sənədlərdən sonuncunun sığortaçıya təqdim edildiyi tarixdən 10 iş günündən gec olmayaraq sığortaçı sığorta ödənişini faydalanan şəxsə onun istəyinə uyğun olaraq nağd və ya bank hesabına köçürmə yolu ilə ödəməli, müvafiq hallarda zərərin qiymətləndirilməsi, əmlakın təmiri, bərpası və ya yenisi ilə əvəz edilməsi üçün görülən tədbir barədə sığortalıya yazılı məlumat verməli, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir.

22. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları

22.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

22.1.1. Zərər bu Qaydaların 16.1.1-ci yarımbəndində nəzərdə tutulan hallarla bağlı olduqda;

22.1.2. Sığortalının, sığorta olunanın, yaxud faydalanan şəxsin sağlamlığının pozulması və ya hadisənin baş verdiyi yerdə hadisə barədə məlumat vermək üçün hər hansı vasitənin olmaması, yaxud digər üzürlü səbəblərin mövcud olduğu hallar istisna olmaqla, sığorta hadisəsi barədə sığortaçıya qanunvericilikdə və bu Qaydaların 17.1-ci bəndində nəzərdə tutulmuş qaydada məlumat verilməməsi nəticəsində hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar sığortaçının mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda;

22.1.3. aşağıdakı hallar istisna olmaqla, sığortalı, sığorta olunan və ya üçüncü şəxs zərər dəymiş avtomobili və ya digər əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etmədikdə:

22.1.3.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkilər üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

~~22.1.3.2. sığortaçı sığorta hadisəsi barədə qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 iş günü müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;~~

~~22.1.3.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda;~~

~~22.1.4. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi və ya şərait yaradılmaması nəticəsində sığortaçı hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda;~~

~~22.1.5. sığortalı sığortalanmış avtomobilə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün zəruri və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görmədikdə; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin məbləği həmin həcmdə azalmış olardı;~~

~~22.1.6. bu Qaydaların 22.2-ci bəndi nəzərə alınmaqla, sığortalının avtomobil, sığorta olunan və (və ya) sığorta hadisəsi barəsində sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçı sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda;~~

~~22.1.7. avtomobilin sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxs zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən aldıqda. Zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda, sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;~~

~~22.1.8. baş vermiş hadisə qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilmədikdə;~~

~~22.1.9. sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsinin razılaşdırıldığı və ilk hissəsinin ödənildiyi halda növbəti hər hansı hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Qaydaların 13.3-cü bəndində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.~~

~~22.1.10. bu Qaydaların Xüsusi hissəsində müəyyən edilmiş digər hallarda.~~

~~22.2. Sığortaçı aşağıdakı hallarda sığorta ödənişinin verilməsindən imtina üçün müvafiq məlumatların verilməməsi, yaxud yanlış məlumatların verilməsi faktına əsaslana bilməz:~~

~~22.2.1. Sığorta müqaviləsi sığortalanma haqqında ərizə olmadan bağlandıqda;~~

~~22.2.2. sığortalanma haqqında ərizə sığortalı tərəfindən imzalanmadan tərtib edildikdə;~~

~~22.2.3. sığortalanma haqqında ərizə formasında nəzərdə tutulan hər hansı məlumatın və ya məlumatların həmin ərizədə göstərilmədiyi halda, sığorta müqaviləsi bağlanmış olduqda;~~

~~22.2.4. sığortalının sığortalanma haqqında ərizəyə əlavə edilən sənədlərdə yanlış məlumatların verilməsində təqsiri olmadıqda;~~

~~22.2.5. sığortalının sığortalanma haqqında ərizədə qəsdən yanlış məlumat verməsinin sığorta müqaviləsinin bağlandığı an sığortaçıya məlum olmasına baxmayaraq, sığorta müqaviləsi bağlanmış olduqda.~~

23. Sığorta ödənişinin gecikdirilməsinin nəticəsi

Sığortaçı sığorta ödənişini bu Qaydalarla müəyyən olunmuş müddətdə ödəmədikdə hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.

24. Subroqasiya hüququ

24.1. Sığortalanmış avtomobilə dəymiş zərərin əvəzini ödəmiş sığortaçı sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən istifadə edə bilər.

24.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüququ sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

24.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

24.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

24.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

25. Mübahisələrin həlli qaydası

25.1. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll olunur.

25.2. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələrin həllində tərəflər arasında qarşılıqlı razılığın əldə olunması mümkün olmadıqda, mübahisələr məhkəmə qaydasında həll edilir.

25.3. Sığorta müqaviləsi üzrə hüquqlarının sığortaçı tərəfindən pozulduğunu hesab edən sığortalı, sığorta olunan və ya faydalanan şəxs sığorta nəzarəti orqanına (*Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə*) şikayət ərizəsi ilə müraciət edə bilər.

## XÜSUSİ HİSSƏ

## BÖLMƏ II. Minik avtomobillərinin sığortası

26. Sığortanın predmeti

Bu bölmə üzrə sığorta predmeti fiziki şəxslərin sahibliyində olan avtomobillərdir.

27. Sığorta riskləri

27.1. Sığortalıya bu Qaydalar əsasında aşağıdakı bəndlərin birində və ya bir neçəsində qeyd olunan risklər nəticəsində avtomobilə dəyə bilən zərərlərdən sığorta təminatı verilir:

27.1.1. avtonəqliyyat hadisəsi – avtomobilin istifadəsi nəticəsində baş verən, ölüm və bədən xəsarəti ilə nəticələnən, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, habelə hər hansı digər əmlakın zədələnməsinə səbəb olan hadisələr;

27.1.2. atılmış və ya düşmüş əşya – avtomobilin hissələrinə zərər vurmadan rəng örtüyünün nöqtələr şəklində zədələnməsi halı istisna olmaqla, avtomobilin xarici səthinə daş, qar, buz və digər əşyaların atılması, dəyməsi və ya düşməsi;

27.1.3. üçüncü şəxsin qanunazidd hərəkəti;

27.1.4. oğurluq, quldurluq, qaçırma və soyğunçuluq;

27.1.5. yanğın və partlayış - *a) yanğın* – alovlanma mənbəyindən asılı olmayaraq maddi ziyan vuran yanma, o cümlədən yüksək temperaturun, yanğın məhsullarının, eləcə də yanğının söndürülməsi üçün istifadə olunmuş su, köpük və digər vasitələrin təsiri, habelə yanğının birbaşa təsiri; *b) partlayış* – qazların genişlənməyə meylliliyi nəticəsində böyük həcmdə enerjinin qısa müddət ərzində məhdud ölçülü məkandan sürətlə çıxaraq azad olması prosesi;

27.1.6. təbii fəlakət – sel, daşqın, zəlzələ, fırtına, qasırğa, tufan, dolu və digər təbii hadisələr;

27.1.7. heyvanların hərəkəti – avtomobilin salonuna vurulan zərərlər istisna olmaqla, heyvanların və quşların hərəkəti.

27.1.8. avtokasko – bu Qaydaların 27.1.1-27.1.7-ci yarımbəndlərində göstərilən risklərin məcmusu.

28. Sığorta hadisəsi

Sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu Qaydaların 27-ci bəndində nəzərdə tutulmuş risklərin baş verməsi nəticəsində sığortalanmış avtomobilə zərər dəyməsi faktı sığorta hadisəsi sayılır.

29. Sığorta təminatında əlavə məhdudiyyətlər

29.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, bu Qaydaların 16-cı bəndində göstərilənlərdən əlavə aşağıdakılara münasibətdə də sığorta təminatı verilmir:

29.1.1. aşağıdakı hallarda dəyən zərər:

29.1.1.1. avtomobilin dərman qutusunun, qəza dayanacağı işarəsinin, istehsalçı zavod tərəfindən quraşdırılmamış cihazlarının, həmçinin qeydiyyat nişanının oğurlanması, zədələnməsi və ya məhv olması;

29.1.1.2. avtomobilin digər hissələri də eyni hadisə nəticəsində zədələndiyi hallar istisna olmaqla, şinlərinin zədələnməsi;

29.1.1.3. avtomobilin açarlarına, elektron aktivləşdirmə kartı, brelok və s. bu kimi detallarına, onların avtomobildən kənarda olduqları halda zərər dəyməsi və ya bu cür halda onların oğurlanması;

29.1.1.4. avtomobilin banı və onun hissələri zədələnmədən onun rəng örtüyünün qopması və ya digər hər hansı formada zədələnməsi;

29.1.1.5. avtomobildə heç kəsin olmadığı zaman qapılarının və ya baqajının açarla bağlı olmaması, pəncərələrinin və ya tavanının (lyukunun) açıq qalması, açarın nəzarətsiz buraxılması və ya avtomobilin içərisində qalması nəticəsində avtomobilin və ya onun içərisində yerləşən hissələrinin qeyd olunan müvafiq səbəblərdən istifadə edilməklə oğurlanması;

29.1.2. avtomobilin dəyərdən düşməsi;

29.1.3. avtomobilin vəziyyətini onun sığorta hadisəsindən əvvəlki vəziyyəti ilə müqayisədə yaxşılaşdıran hər hansı təmir və ya dəyişdirmə işləri;

29.1.4. avtomobilin bütövlükdə və ya onun ayrı-ayrı hissə və aqreqatlarının təbii aşınması, onun əmtəə görünüşünün itməsi, istehsal və təmir zamanı mövcud olan qüsurları;

29.1.5. sığortalının, sürücünün və ya sərnişinlərin sığorta hadisəsinin baş verdiyi anda avtomobildə olan əmlakına dəyən zərər.

30. **Sığorta məbləği**

30.1. Avtomobilin sığortası üzrə müəyyən olunan sığorta məbləği sığortalanan avtomobilin bazar dəyərindən artıq ola bilməz.

30.2. Avtomobilin sığortası üzrə sığorta məbləği sığortalanan avtomobilin bazar dəyərindən artıq olduğu halda (ikili və ya çoxqat sığorta halında), sığorta müqaviləsi müvafiq sığorta məbləğinin həmin dəyərdən artıq olan hissəsində etibarsızdır.

30.3. Avtomobil sığortalı tərəfindən qanunsuz gəlir əldə etmək məqsədilə bir və ya bir neçə sığorta müqaviləsi əsasında onun bazar dəyərindən artıq məbləğə sığorta etdirildikdə, bu məqsədlə bağlanmış hər bir sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır. Bu halda sığortalının qanunsuz gəlir əldə etmək məqsədi məhkəmə qaydasında sübut edilməlidir.

31. **Qismən sığorta**

31.1. Avtomobilin sığortası üzrə müqavilədə göstərilmiş sığorta məbləği avtomobilin bazar dəyərindən az olduğu halda (qismən sığorta halında), zərər məbləğinin sığorta ödənişinin həyata keçirilməsi üçün tətbiq edilən hissəsi sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində hesablanır.

31.2. Sığorta müqaviləsində nəzərdə tutulduğu halda qismən sığorta zamanı zərər məbləğinin sığorta ödənişinin həyata keçirilməsi üçün tətbiq edilən hissəsi kimi tam zərər məbləği götürülə bilər.

32. **Sığorta ödənişinin həyata keçirilməsi**

32.1. Sığorta ödənişinin məbləği sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmış avtomobilə dəyən real zərərin məbləğindən çox ola bilməz.

32.2. Sığortalanmış avtomobilə dəymiş zərərlə bağlı sığorta ödənişi sığortaçının seçimi əsasında aşağıdakı formalarda ödənilə bilər:

32.2.1. avtomobilə *qismən zərər dəydikdə*:

32.2.1.1. Zərərin məbləği barədə tərəflər arasında razılıq əldə edildikdən sonra zərər məbləğinin pul şəklində faydalanan şəxsə ödənilməsi;

32.2.1.2. zərərin aradan qaldırılması üçün sığortalıya göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

32.2.1.3. avtomobilin təmiri və ya bərpası;

32.2.2. avtomobilin *tam məhv olması* (avtomobilin sığorta hadisəsindən əvvəlki vəziyyətə çatdırılması üçün təmiri və ya bərpasına tələb olunan xərclərin avtomobilin bazar dəyərinin 75 %-ni və ya daha çox hissəsini təşkil etməsi), *yaxud oğurlanması və ya qaçırılması* halında:

32.2.2.1. sığorta məbləğindən çox olmamaq şərtilə avtomobilin sığorta hadisəsi baş verdiyi andan dərhal əvvəlki bazar dəyərinin pul şəklində ödənilməsi. Tam məhv olma halında sığortaçının öz seçimi əsasında avtomobilin qalıqlarının dəyərini sığorta ödənişi məbləğindən çıxmaq və ya həmin qalıqların onun mülkiyyətinə verilməsini tələb etmək hüququ vardır.

32.2.2.2. sığortalanmış avtomobilin eyni marka və modeldən olan, habelə eyni texniki vəziyyətdə olan digər avtomobillə əvəz edilməsi.

32.3. Sığorta ödənişi bu Bölmənin 32.2.1.1-ci və 32.2.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş formalarda ödənildiyi hallarda sığorta olunan bərpa olunmuş avtomobili və onun dəyişdirilmiş hissələrini sığortaçıya təqdim etməlidir. Bu zaman sığortaçı sığorta olunana avtomobilin təmir edilmiş vəziyyətini təsdiq edən müvafiq arayış verməlidir.

32.4. İpoteka qoyulan avtomobilin sığortası üzrə sığorta hadisəsi baş verdiyi tarixdə faydalanan şəxs olan ipoteka saxlayana borclunun (ipoteka qoyanın) borc (kredit) müqaviləsi üzrə sığorta ödənişinin verildiyi tarixə ona ödəməli olduğu məbləğdən artıq sığorta ödənişi verilə bilməz.

**33. Təmir və ya bərpa xərclərinin ödənilməsi zamanı nəzərə alınmayan amillər**

33.0. Sığorta hadisəsi nəticəsində zərər dəymiş avtomobilin təmiri və ya bərpası xərcləri hesablanarkən aşağıdakılar nəzərə alınmır:

33.0.1. avtonəqliyyat vasitəsinə texniki xidmət və onun zəmanətli təmiri;

33.0.2. avtomobilin ayrı-ayrı hissələrinin təbii aşınması və ya köhnəlməsi ilə bağlı aparılan bərpa işləri və ya belə hissələrin dəyişdirilməsi;

33.0.3. təmir yolu ilə istismara yararlı vəziyyətə gətirilə bilən hissələrin dəyişdirilməsi;

33.0.4. avtomobilin zədələnmiş hissəsinin rənglənməsindən əlavə onun zədələnməmiş digər hissələrinin rənglənməsi.

**34. Köhnəlmə əmsalı**

34.1. Sığorta müqaviləsində nəzərdə tutulduğu hallarda, sığorta ödənişi həyata keçirilərkən bu Qaydaların 34.2-ci bəndində müəyyən edilmiş hal istisna olmaqla və 34.6-cı bəndi nəzərə alınmaqla, avtomobilin dəyişdirilməli olan hissələrinin və aqreqatlarının bazar dəyərinə köhnəlmə əmsalı tətbiq edilə bilər.

34.2. Avtomobilin tam məhvi halında sığorta ödənişi verilərkən köhnəlmə əmsalı tətbiq olunmur.

34.3. Köhnəlmə əmsalı aşağıdakı qaydada hesablanır:

$$KF = K_1M + K_2I$$

burada:

$K_1$ – bu Qaydaların 34.4-cü bəndinə uyğun olaraq, avtomobilin keçdiyi məsafəyə görə köhnəlmə əmsalı (hər keçilmiş 1000 kilometrə görə faizlə);

$M$ – istismara başlama tarixindən sığorta hadisəsinin baş verdiyi tarixədək faktiki keçilmiş məsafə (min kilometrlə);

$K_2$ – bu Qaydaların 34.5-ci bəndinə uyğun olaraq, avtomobilin istismar müddətinə görə köhnəlmə əmsalı (hər istismar ilinə görə faizlə);

$I$ - istismara başlama tarixindən sığorta hadisəsinin baş verdiyi tarixədək faktiki istismar müddəti (ili).

34.4. avtomobilin *keçdiyi məsafəyə görə* köhnəlmə əmsalı aşağıdakı göstəricilər əsasında müəyyən olunur:

| *S/s* | *Mühərrikin növü* | *Mühərrikin işçi həcmi* ($sm^3$) | ***Hər keçilmiş 1000 km məsafəyə görə, %-lə*** |
|---|---|---|---|
| 1. | Benzin | 1500-dək | 0,35 |

| | | | |
|---|---|---|---|
| | | 1600 | 0,20 |
| | | 1800 | 0,15 |
| | | 2000 | 0,17 |
| | | 2000-dən yuxarı | 0,20 |
| 2. | Dizel | İstənilən həcmdə | 0,20 |
| 3. | Turbo - dizel | İstənilən həcmdə | 0,25 |

34.5. avtomobilin *istismar müddətinə görə* köhnəlmə əmsalı aşağıdakı göstəricilər əsasında müəyyən olunur:

| *1 il ərzində keçilmiş orta məsafə (min km)* | 2-dək | 2 - 5 | 5 - 10 | 10 - 15 | 15 - 20 | 20 - 30 | 30 - 40 | 40 - 60 | 60- 100 | 100-dən çox |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Tam 1 il üçün, %-lə* | 1,60 | 1,45 | 1,25 | 1,05 | 0,85 | 0,80 | 0,75 | 0,65 | 0,60 | 0,55 |

34.6. Köhnəlmə əmsalı avtomobilin dəyişdirilməli olan hissələrinin və aqreqatlarının bazar dəyərinin 50 %-dən çox olmamaqla tətbiq edilir.

34.7. Sığorta müqaviləsində köhnəlmə əmsalı nəzərdə tutulduqda, bu Fəslin məqsədləri üçün zərər məbləği köhnəlmə əmsalının tətbiq edilməsindən sonra alınan məbləğ hesab edilir.

## BÖLMƏ III. Minik avtomobili sahiblərinin mülki məsuliyyətinin sığortası

### 35. Sığortanın predmeti

Bu Bölmə üzrə sığorta predmeti bu Qaydaların 1.0.1-ci yarımbəndində nəzərdə tutulmuş avtomobillərin sahiblərinin mülki məsuliyyətinin yaranması halıdır.

### 36. Sığorta riskləri və sığorta hadisəsi

36.1. Avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta müqaviləsində göstərilən avtomobilin istifadəsi zamanı üçüncü şəxslərin həyatına, sağlamlığına və (və ya) əmlakına dəyən zərərin əvəzinin ödənilməsi üzrə sığorta olunanın mülki məsuliyyətinin yaranması riskindən sığorta təminatı verilir.

36.2. Qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta müqaviləsində göstərilən avtomobilin istifadəsi zamanı üçüncü şəxslərin həyatına, sağlamlığına və (və ya) əmlakına vurulan zərərin əvəzinin ödənilməsinə görə sığorta olunanın mülki məsuliyyəti üzrə öhdəliyinin nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sığorta məbləğindən artıq miqdarda olması faktı sığorta hadisəsi hesab edilir.

### 37. Sığorta təminatında əlavə məhdudiyyətlər

37.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, bu Qaydaların 16-cı bəndində göstərilənlərdən əlavə, aşağıdakılara münasibətdə də sığorta təminatı verilmir:

37.1.1. Sığortalının işçisinin avtomobilin sərnişini olarkən sığortalı ilə əmək münasibətlərindən irəli gələn peşə vəzifələrinin icrası zamanı ölməsi və ya bədən xəsarəti alması nəticəsində yaranan məsuliyyət;

~~37.1.2. avtomobilin sərnişini kimi hərəkət edən sığorta olunanın hər hansı ailə üzvünün ölməsi və ya bədən xəsarəti alması nəticəsində yaranan məsuliyyət;~~

~~37.1.3. əmlaka vurulan zərərə görə əldən çıxmış fayda və ya digər dolayı zərərlərə görə məsuliyyət;~~

~~37.1.4. cərimələr və ya mənəvi zərərlərə görə təzminat ödəmək məsuliyyəti;~~

~~37.1.5. nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyət həddində ödənilməli olan zərər məbləğləri.~~

~~38. **Sığorta məbləği və azadolma məbləği**~~

~~38.1. Avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta məbləği tərəflərin razılığı ilə sığorta müqaviləsində müəyyən olunur və üçüncü şəxsə dəyən zərərin nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sığorta məbləğindən artıq miqdarda olan hissəsi üzrə sığortaçının öhdəliyinin son həddini ifadə edir.~~

~~38.2. Bu Qaydaların məqsədləri üçün avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə azadolma məbləği müəyyən edilmir.~~

~~39. **Sığorta ödənişinin verilməsi**~~

~~39.1. Avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta hadisəsi baş verdikdə *üçüncü şəxsin əmlakına dəyən birbaşa zərərin əvəzi* aşağıdakı məbləğlərdə ödənilir:~~

~~39.1.1. əmlak tamamilə məhv olduqda – istifadə üçün yararlı olan qalıqların dəyəri çıxılmaq şərtilə, həmin əmlakın sığorta hadisəsinin baş verməsi anında mövcud olmuş bazar dəyəri məbləğində;~~

~~39.1.2. əmlak qismən zədələndikdə - həmin əmlakın sığorta hadisəsindən dərhal əvvəlki vəziyyətinə qaytarılması üçün tələb olunan xərc məbləğində.~~

~~39.2. Avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta hadisəsi baş verdikdə, *üçüncü şəxsin həyat və sağlamlığına dəyən zərərin əvəzi* aşağıdakı məbləğlərdə ödənilir:~~

~~39.2.1. zərərçəkənin malik olduğu, yaxud hadisə baş verməsə idi malik olması real olaraq ehtimal edilən və itirdiyi qazanc (gəlir) məbləğində;~~

~~39.2.2. zərərçəkənin sağlamlığının pozulması ilə bağlı çəkdiyi əlavə xərclərin, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclər məbləğində, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun qanunvericilikdə nəzərdə tutulmadığı müəyyənləşdirilsin;~~

~~39.2.3. ailə başçısı olan zərərçəkənin öldüyü halda onun himayəsində olan şəxslərin itirdiyi qazanc məbləğində;~~

~~39.2.4. zərərçəkənin öldüyü halda 1000 (min) manatdan artıq olmamaq şərtilə onun dəfni ilə bağlı xərclər.~~

~~39.3. Sığorta hadisəsi nəticəsində üçüncü şəxsin həyatına və sağlamlığına dəyən zərərin əvəzi Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1117-ci maddəsində müəyyən olunmuş qaydalar üzrə ödənilir.~~

39.4. Eyni sığorta hadisəsi nəticəsində bir neçə şəxsin əmlakına və ya həyat və sağlamlığına dəyən zərərin ümumi məbləği avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müəyyən olunmuş sığorta məbləğindən artıq olduqda sığortaçı hər bir zərərçəkənə ona vurulan zərər məbləğinə mütənasib məbləğdə sığorta ödənişi verir. Bu halda zərərçəkənlərin hamısına verilən sığorta ödənişinin ümumi məbləği avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müəyyən olunmuş sığorta məbləğinə bərabər olmalıdır.

## BÖLMƏ IV. Sürücülərin və sərnişinlərin fərdi qəza sığortası

### 40. Sığortanın predmeti

Bu Bölmə üzrə sığorta predmeti bu Qaydaların 1.0.1.-ci yarımbəndində nəzərdə tutulmuş avtomobillərin sürücüləri və sərnişinləridir.

### 41. Sığorta olunan

41.1. Sığorta müqaviləsində göstərilən avtomobildə olan sürücü və sərnişin sürücülərin və sərnişinlərin fərdi qəza sığortası üzrə sığorta olunan hesab olunurlar.

41.2. Sığorta olunanların sayı avtomobilin istehsalçısı tərəfindən nəzərdə tutulmuş oturacaq yerlərinin sayından çox ola bilməz.

### 42. Sığorta riskləri

42.1. Fərdi qəza sığortası üzrə sığorta müqaviləsində göstərilən avtomobilin istifadəsi ilə əlaqədar sürücüsünün və (və ya) sərnişininin həyat və sağlamlığına dəyə bilən zərərin aşağıda göstərilən hallarla nəticələnməsi risklərindən sığorta təminatı verilir:

42.1.1. əmək qabilliyətinin itirilməsi ilə əlaqədar I, II, III dərəcə əlilliyin müəyyən olunması;

42.1.2. 18 yaşınadək uşağın sağlamlıq imkanlarının məhdudlaşması;

42.1.3. ölüm.

### 43. Sığorta hadisəsi və ona dair bəzi tələblər

43.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində və əhatə etdiyi ərazidə bu Qaydaların 28.1-ci bəndində müəyyən edilmiş risklərin hər hansı birinin baş verməsinin 42.1-ci bəndində nəzərdə tutulmuş hallarla nəticələnməsi, 43.2-ci və 43.3-cü bəndlərinin tələbləri nəzərə alınmaqla sığorta hadisəsi sayılır.

43.2. Sığorta olunanın ölməsi halı yalnız aşağıdakı halların hər biri mövcud olduqda sığorta hadisəsi sayılır:

43.2.1. ölümə səbəb olan bədbəxt hadisə sığorta müqaviləsi qüvvədə olan müddətdə baş vermiş olsun;

43.2.2. ölüm faktı ölümə birbaşa səbəb olan və sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə baş vermiş bədbəxt hadisənin nəticəsi olsun;

43.2.3. ölüm hadisəsi bədbəxt hadisənin baş verməsi tarixindən ən geci 1 il müddətində baş vermiş olsun.

43.3. Sığorta olunanın sağlamlığına dəymiş zərərlə əlaqədar olaraq ona I, II, III qrup əlilliyin təyin olunması və ya 18 yaşınadək uşağın sağlamlıq imkanlarının məhdudlaşması yalnız aşağıdakı halların hər biri mövcud olduqda sığorta hadisəsi sayılır:

43.3.1. zərərə səbəb olan bədbəxt hadisə sığorta müqaviləsi qüvvədə olan müddətdə baş vermiş olsun;

~~43.3.2. zərər birbaşa ona səbəb olmuş bədbəxt hadisə nəticəsində dəymiş olsun;~~

~~43.3.3. zərər bədbəxt hadisənin baş verməsi tarixindən ən geci 1 il müddətində müəyyən edilmiş olsun.~~

~~44. **Sığorta təminatında əlavə məhdudiyyətlər**~~

~~Bu Qaydaların 16-cı bəndində göstərilənlərdən əlavə, sığorta olunanın özünə sui qəsd etməsi halına da sığorta təminatı verilmir.~~

~~45. **Sığorta məbləği**~~

~~45.1. Sürücülərin və sərnişinlərin fərdi qəza sığortası müqaviləsi üzrə sığorta məbləği tərəflərin razılığı ilə sığorta müqaviləsində müəyyən olunur.~~

~~45.2. Sürücülərin və sərnişinlərin fərdi qəza sığortası üzrə sığorta məbləği avtomobilin bir oturacaq yeri, yəni bir sığorta olunan üçün sığorta məbləğini ifadə edir.~~

~~46. **Sığorta ödənişinin verilməsi**~~

~~46.1. Sığorta hadisəsinin baş verməsi tarixindən 1 il müddətində sığorta olunanın ölməsi halında sığorta ödənişi sığorta məbləğinin 100 faizi həcmində onun vərəsələrinə verilir.~~

~~46.2. Sığorta olunanın sağlamlığına zərər dəyməsi halında sığorta ödənişi aşağıdakı məbləğlərdə ödənilir:~~

~~46.2.1. əmək qabilliyətinin itirilməsi ilə əlaqədar:~~

~~46.2.1.1. Birinci dərəcə əlillik müəyyən olunduqda – sığorta məbləğinin 100 faizi;~~

~~46.2.1.2. ikinci dərəcə əlillik müəyyən olunduqda – sığorta məbləğinin 80 faizi;~~

~~46.2.1.3. üçüncü dərəcə əlillik müəyyən olunduqda – sığorta məbləğinin 60 faizi;~~

~~46.2.2. 18 yaşınadək uşağın sağlamlıq imkanlarının məhdudlaşması müəyyən olunduqda – sığorta məbləğinin 100 faizi.~~

~~46.3. Sığorta hadisəsi nəticəsində sığorta ödənişi almış sığorta olunana təyin edilmiş əlillik dərəcəsinin dəyişməsi, yaxud onun ölməsi ilə əlaqədar sığorta ödənişi növbəti dəfə verilərkən, həmin hadisə ilə bağlı bu Bölmə əsasında əvvəllər verilmiş sığorta ödənişi məbləğləri çıxılır.~~

*~~"Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası üzrə Sığorta Qaydaları"na ƏLAVƏ.~~*

~~**FİZİKİ ŞƏXSLƏRİN SAHİBLİYİNDƏ OLAN MİNİK AVTOMOBİLLƏRİNİN TAM SIĞORTASI ÜZRƏ**~~

~~**SIĞORTALANMA HAQQINDA ƏRİZƏ**~~

~~I. AVTOMOBİLİ SIĞORTA ETDİRƏN ŞƏXS VƏ AVTOMOBİLİN MÜLKİYYƏTÇİSİ HAQQINDA MƏLUMAT~~

~~1. Avtomobili sığorta etdirən şəxsin~~

~~1.1. Adı, soyadı, atasının adı:.............................................................~~

~~1.2. Cinsi: ...........................................................................................~~

~~1.3. Doğum tarixi:.................................................................................~~

~~1.4. Şəxsiyyət vəsiqəsinin seriyası,~~
~~nömrəsi və PİN-kodu:.........................................................................~~

~~QEYD: Şəxsiyyət vəsiqənin PİN-kodunu vəsiqənin fotoşəkil olan üzündə iki sətirdən ibarət simvolların axırıncı sətirdə çap edilmiş son səkkizinin ilk yeddincisi təşkil edir.~~

~~1.5. Ev ünvanı:......................................................................................~~

~~1.6. Telefon: *ev* ___________; *iş* ___________ ; *mobil* ____________~~

~~1.7. Elektron poçt (e-mail) ünvanı:.........................................................~~

~~1.8. Sürücülük vəsiqəsinin nömrəsi və verilmə tarixi:..................................~~

~~1.9. Sürücülük vəsiqəsinin kateqoriyası: _____~~

~~1.10. Sürücülük təcrübəsi _____ il~~

~~1.11. Avtomobilə münasibəti:~~

*a)* mülkiyyətindədir ____

*b)* etibarnamə əsasında idarə edir ____

- *Etibarnamənin nömrəsi*..........................................................

- *Verilmə tarixi*........................................................................

- *Başa çatma tarixi*..................................................................

2. Avtomobilin mülkiyyətçisinin

2.1. soyadı, adı, atasının adı:..................................................................

2.2. Şəxsiyyət vəsiqəsinin seriyası,

nömrəsi və PİN-kodu:...........................................................................

QEYD: Şəxsiyyət vəsiqənin PİN-kodunu vəsiqənin fotoşəkil olan üzündə iki sətirdən ibarət simvolların axırıncı sətirdə çap edilmiş son səkkizinin ilk yeddincisi təşkil edir.

2.3. Ev ünvanı: ..........................................................................................

2.4. Telefon: *ev* ___________; *iş* ____________; *mobil* _____________

2.5. Elektron poçt ünvanı: ......................................................................

_____________
*(imza)*

II. AVTOMOBİL HAQQINDA MƏLUMAT

3. Avtomobilin

3.1. markası və modeli:........................................................................

3.2. buraxılış ili:..................................................................................

3.3. rəngi:...........................................................................................

3.4. mühərrikin həcmi:.........................................................................

3.5. mühərrikin *(at)* gücü:......................................................................

3.6. keçdiyi məsafə: ____________ *km*

3.7. oturacaqların sayı:...........................................................................

3.8. qeydiyyat şəhadətnaməsinin seriyası və nömrəsi:...............................

3.9. dövlət qeydiyyat nişanı:....................................................................

3.10. mühərrik nömrəsi:.........................................................................

3.11. şassi nömrəsi:.............................................................................

3.12. ban nömrəsi:...............................................................................

4. Avtomobilin bazar dəyəri:_______________ *manat*

5. Avtomobil ipotekadadırmı (girovdadırmı)?

*a)* Xeyr___

*b)* Bəli ___

- *İpoteka saxlayanın adı:* ..................................................................

- *İpoteka müqaviləsinin nömrəsi:* .........................................................

- *İpoteka müqaviləsinin qüvvəyə minmə tarixi:* ........................................

- *İpoteka müqaviləsinin başa çatma tarixi:* .............................................

6. Avtomobil hansı məqsədlər üçün istifadə olunacaq?

*(Avtomobil bir neçə məqsəd üçün istifadə olunacaqsa, həmin məqsədlərin hər birini işarələyin):*

*a)* şəxsi (ailəvi) məqsədlər üçün ___
*b)* işguzar məqsədlər üçün ___
*c)* ödənişli sərnişin daşımaları üçün *(taksi və s.)* ___
*d)* digər məqsədlər üçün *(açıqlayın)* ..........................................
..........................................................................................................

**Mənə** izah olunub ki, avtomobilin bu **ərizənin** 6-**cı** bəndində qeyd etdiyim **məqsədlərdən** fərqli **məqsədlər** üçün istifadə edilməsi halında **dəyən** zərər **sığorta** **təminatına** daxil deyil. **Mənə** həmçinin o da izah olunub ki, avtomobilin bu **ərizənin** 6-**cı** bəndində qeyd etdiyim **məqsədlərdən** fərqli **məqsədlər** üçün istifadəsinə **başlanmazdan** əvvəl bununla **bağlı** **sığorta** **təminatının** **sığorta** müqaviləsinə daxil edilməsi məqsədilə **sığortaçıya** **yazılı** məlumat verməliyəm.

______________
*(imza)*

III. SÜRÜCÜLƏR HAQQINDA MƏLUMAT

7. Avtomobili kim idarə edəcək? *(Aşağıdakılardan yalnız birini seçib, işarələyin.)*

*a)* avtomobili qanuni əsaslarla idarə etmək hüququ olan istənilən fiziki şəxs ___

*b)* yalnız sığortalı ___

*c)* sığortalı və aşağıda göstərilən şəxslər: ___

| Soyadı, adı, atasının adı | Təvəllüdü | Sürücülük vəsiqəsinin nömrəsi və verilmə tarixi | Sürücülük vəsiqəsinin kateqoriyası | Sürücülük təcrübəsi *(il)* | Şəxsiyyət vəsiqəsinin Pin Kodu | **Sığortalıya** münasibəti (*valideyni, övladı, digər qohumu, işçisi, sürücüsü və s.*) |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Mənə** izah olunub ki, avtomobilin bu **ərizənin** 7-ci bəndində qeyd etdiyim **şəxslərdən** başqa **digərləri** tərəfindən idarə edilməsi halında **dəyən** zərər **sığorta** **təminatına** daxil deyil və belə hallarda **sığorta** **ödənişi** **verilməyəcək**. **Mənə** həmçinin o da izah olunub ki, **şəxslərə** avtomobili idarəetmə hüququnun bu **ərizənin** 7-ci bəndində qeyd etdiklərimdən **başqa** digər **şəxslərə** verilməsindən əvvəl mən həmin **şəxslərin** **sığorta** müqaviləsi üzrə **sığorta** olunanlar kimi **tanınması** üçün həmin **müqaviləyə** müvafiq **dəyişiklik** edilməsi məqsədilə **sığortaçıya** **yazılı** məlumat verməliyəm.

(imza)

IV. DƏYİŞİKLİKLƏR HAQQINDA SIĞORTAÇININ MƏLUMATLANDIRILMASI

Mənə izah olunub ki, sığorta müqaviləsi bağlandıqdan sonra həmin müqavilənin qüvvədə olduğu müddət ərzində mən sığorta riskinin dəyişməsinə təsir göstərə bilən aşağıdakı hallar barədə bildiyim və ya bilməli olduğum tarixdən 5 iş günü müddətində bu barədə sığortaçıya yazılı məlumat verməliyəm:

*a.* avtomobilin özgəninkiləşdirilməsi, onun icarəyə verilməsi və ya ona olan mülkiyyət hüquqlarının digər formada itirilməsi və ya məhdudlaşdırılması;

*b.* nömrəli aqreqatların (mühərrik, şassi və ban) dəyişdirilməsi;

*c.* sığortalanmış avtomobilin sığorta hadisəsi hesab edilməyən hadisədə dəyərinin ən azı 10 faiz məbləğində zərərlə nəticələnən zədələnməsi;

*d.* avtomobilin dövlət qeydiyyatı haqqında sənədlərinin itirilməsi, oğurlanması və ya dəyişdirilməsi;

*e.* avtomobilin açarlarının itirilməsi və ya oğurlanması.

Mənə həmçinin izah olunub ki, yuxarıda göstərilən məlumatların sığortaçıya vaxtında verilməməsi sığorta ödənişindən imtinaya əsas ola bilər.

(imza)

V. SIĞORTA MÜQAVİLƏSİNDƏ NƏZƏRDƏ TUTULMASI İSTƏNİLƏN ŞƏRTLƏR

8. Sığorta təminatına daxil edilməsi istənilən sığorta riskləri:

*Bu hissə ilə bağlı tələb olunan məlumatlar sığortaçılar tərəfindən, onların öz mülahizələrinə əsasən müəyyən edilir.*

(imza)

9. Sığorta müqaviləsi üzrə *azadolma məbləği*

*Bu hissə ilə bağlı tələb olunan məlumatlar sığortaçılar tərəfindən, onların öz mülahizələrinə əsasən müəyyən edilir.*

(imza)

10. Qaydaların II Bölməsi *(minik avtomobillərinin sığortası)* üzrə sığorta təminatı verildiyi halda sığorta etdirilən avtomobilə dəyən zərərə görə *köhnəlmə əmsalının* tətbiq edilməsi nəzərdə tutulsunmu?

~~*a)* Bəli ___~~

~~*b)* Xeyr___~~

______________

~~*(imza)*~~

~~11.**Sığ**orta müqaviləsi üzrə sı**ğ**orta etdirilən avtomobil~~

~~*a)* Tam sığortalansın ___~~

~~*b)* Qismən sığortalansın ___~~

~~*- Qismən sığortalandığı halda sığorta məbləğinin avtomobilin bazar dəyərinə nisbəti – ____%*~~

______________

~~*(imza)*~~

~~Bu ərizədə qeyd etdiyim məlumatların doğruluğunu təsdiq edirəm.~~

~~**Mənə** izah olunub ki, bu **ərizədə** qeyd etdiyim məlumatları qəsdən yanlı**ş** təqdim etməyim qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla sı**ğ**orta ödənişindən imtinaya **səbə**b ola bilər.~~

______________

~~*(imza)*~~

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il)*
2. 23 sentyabr 2014-cü il tarixli Q-20 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201409230020*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 03 oktyabr 2014-cü il)*

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2012-ci il 21 dekabr tarixli Q-11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi Qaydaları" (1 nömrəli əlavə) ləğv edilmişdir.

[2] 23 sentyabr 2014-cü il tarixli Q-20 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201409230020*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 03 oktyabr 2014-cü il)* ilə 1.9-cu bəndi ləğv edilmişdir.

[3] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2012-ci il 21 dekabr tarixli Q-11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi Qaydaları" (1 nömrəli əlavə) ləğv edilmişdir.

[4] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il)* ilə Qaydaların adında birinci halda "**və**" sözü çıxarılmışdır, "lisenziya" sözündən sonra ", həmçinin aktuari fəaliyyətinə aktuari şəhadətnaməsi" sözləri əlavə edilmişdir.

[5] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il)* ilə 1.1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.1. Bu Qaydalar «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun 37.2.7-ci və 83.2.2-ci maddələrinə əsasən, həmin Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli, 735 nömrəli Fərmanının 3.1.-ci bəndinə, habelə Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyasının prinsip və standartlarına uyğun olaraq hazırlanmış və sığortaçının rəhbər işçisi vəzifəsinə təyin edilən və ya belə vəzifəni müvəqqəti icra etməsi nəzərdə tutulan, habelə sığorta vasitəçiliyi üzrə müvafiq lisenziya almaq istəyən fiziki şəxslər üçün attestasiyanın (bundan sonra "attestasiya" adlandırılacaq) keçirilməsi qaydalarını müəyyən edir.~~

[6] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013*, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il)* ilə 2.1.1-ci yarımbənddə "sığorta vasitəçisi ilə bağlı sığorta qanunvericiliyində nəzərdə tutulmuş tələblərə cavab verməsini təsdiq edən" sözləri "sığorta vasitəçisi, yaxud aktuari ilə bağlı bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilmişdir.

[7] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il)* ilə 2.1.2-ci yarımbənddə "sığorta vasitəçiliyi" sözlərindən sonra ", yaxud aktuari" sözləri əlavə edilmişdir.

[8] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* 3.1.1.1-ci və 3.1.1.2-ci yarımbəndlər yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi.

~~3.1.1.1. şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti;~~

~~3.1.1.2. ali təhsil haqqında sənədin notariat qaydasında təsdiq edilmiş surəti;~~

[9] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* 3.1.1.3-cü və 3.1.1.4-cü yarımbəndlər ləğv edilmişdir.

[10] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* 3.1.1.5-ci yarımbənddən "Fiziki şəxsin" sözləri çıxarılmışdır.

[11] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* 3.1.2.1-ci və 3.1.2.2-ci yarımbəndlər yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1.2.1. şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti;~~

~~3.1.2.2. daimi yaşayış yeri haqqında arayış;~~

[12] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* 3.1.2.3-cü yarımbənd ləğv edilmişdir.

[13] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* yeni məzmunda 3.1.3-cü yarımbənd əlavə edilmişdir.

[14] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il)* ilə 3.2-ci bəndin birinci cümləsində "sığorta vasitəçiliyi" sözlərindən sonra ", yaxud aktuari" sözləri əlavə edilmişdir, "qanunvericilikdə" sözü "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq olaraq 37-ci, 83.2-ci və 83-3.2-ci maddələrində" sözləri ilə əvəz olunmuşdur.

[15] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı *(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi* 15201405190013, *Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə* 3.3–3.5-ci bəndlər ləğv edilmişdir.

[16] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 4.1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.1. Bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulmuş, müvafiq tələblərə uyğun hesab edilən şəxsə göndərilən bildirişdə attestasiyanın ikinci mərhələsinin keçirilmə forması olan test imtahanının (bundan sonra "imtahan" adlandırılacaq) vaxtı və yeri barədə də məlumat verilir.~~

[17] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 4.2-ci bənd ləğv edilmişdir.

[18] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 5.3-cü bənddə "fəaliyyətinin" sözündən sonra "və ya aktuari fəaliyyətinin" sözləri əlavə edilmişdir.

[19] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 6-cı hissənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Attestasiyadan müvəffəqiyyətlə keçən iştirakçılar barədə məlumat imtahandan sonrakı 3 iş günü müddətində sığorta nəzarəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir və attestasiyadan keçmiş şəxsə bu barədə, imtahanda topladığı balın da əks etdirildiyi arayış şəxsən təqdim olunur.~~

[20] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici sığortaçıların payının son həddinin müəyyən edilməsi və bu payın hesablanması Qaydaların adında və 1-ci bəndində "xarici sığortaçıların" sözləri "xarici kapital" sözləri ilə əvəz edilmişdir.

[21] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3. Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində bütün xarici sığortaçıların payının son həddi 30 % müəyyən edilir.~~

[22] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 4-cü bənddə hər iki halda "xarici sığortaçı" sözləri "xarici fiziki və ya hüquqi şəxs" sözləri ilə əvəz edilmişdir.

[23] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 5-ci bənddə "xarici sığortaçı" sözləri "xarici fiziki və ya hüquqi şəxs" sözləri ilə, "xarici sığortaçıların" sözləri "xarici kapital" sözləri ilə, "xarici sığortaçının" sözləri isə "xarici fiziki və ya hüquqi şəxsin" sözləri ilə əvəz edilmişdir.

[24] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 6-cı səndə birinci abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~6. Xarici sığortaçı dolayısı ilə iştirak edirsə, həmin xarici sığortaçının Azərbaycan Respublikasında fəaliyyət göstərən sığortaçının nizamnamə kapitalında dolayısı ilə iştirak payı aşağıdakı düsturla hesablanır:~~

[25] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə dördüncü, beşinci və altıncı abzaslarda "xarici sığortaçının" sözləri "xarici fiziki və ya hüquqi şəxsin" sözləri ilə əvəz edilmişdir.

[26] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 7-ci bənddə "xarici sığortaçıların" sözləri çıxarılmışdır və "dolayısı ilə iştirak" sözləri "dolayısı ilə iştirakı ifadə edən xarici kapital" sözləri ilə əvəz edilmişdir.

[27] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə "Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması Qaydaları"nın 1.1-ci bənddə "nümayəndəliklərinin " sözündən sonra "aktuarilərin," sözü əlavə edilmişdir.

[28] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 1.4-cü bənddə "lisenziya aldıqda" sözlərindən sonra ", aktuarilər isə həmin orqanda attestasiyadan keçdikdə" sözləri əlavə edilmişdir.

[29] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 2.1.1-ci yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.1.1. Adı, ünvanı, telefon və faks nömrələri, elektron poçt ünvanı, rəsmi internet səhifəsi, hüquqi şəxsin rəhbərinin adı, soyadı və vəzifəsi göstərilməklə yazılı müraciət;~~

[30] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 2.1.2-ci və 2.1.3-cü yarımbəndlərdə "notariat qaydasında" sözlərindən sonra "və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada" sözləri əlavə edilmişdir.

[31] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 2.1.4–1-ci yarımbənd əlavə olunmuşdur.

[32] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 2.1.5–1-ci yarımbənd əlavə olunmuşdur.

[33] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 2.1.8-ci yarımbənddə "notariat qaydasında" sözlərindən sonra "və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada" sözləri əlavə edilmişdir.

[34] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 4.1.1-ci yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.1.1. Bu Qaydaların 2-ci bəndində nəzərdə tutulmuş şəxslərin müvafiq lisenziyaları ləğv edildikdə;~~

[35] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 4.1.6-cı yarımbənddə "çirkli pulların yuyulması və (və ya)" sözləri "cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və" sözləri ilə əvəz edilmişdir.

[36] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 5.1-ci bənddə "kağız və elektron daşıyıcılarında" sözləri "elektron qaydada" sözləri ilə, "6 və 7" sözləri "6, 7 və 8" sözləri ilə əvəz edilmişdir.

[37] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə 5.2-ci bənddə "qanunvericiliklə" sözü "qanunla" sözü ilə əvəz edilmişdir.

[38] 19 may 2014-cü il tarixli Q-13 nömrəli Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201405190013, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 iyun 2014-cü il) ilə "Əlavə № 8" əlavə edilmişdir.